# FATİMƏ NURUZADƏ



**"Yaxşı kitab aysberqə oxşayır, onun yeddi-səkkiz hissəsi suyun altında gizlənib"**

***(Ernest Heminquey)***

"Bilik gücdür" deyiblər dahilər. Elə bu atalar sözündən yola çıxaraq demək olar ki, biliksiz insan bar verməyən ağaca bənzər. Nursuz göz kimidir elmsiz ürək, nadan insanlıqdan uzaqdır gerçək.

Kitab oxuyanlar televiziyaya baxanları həmişə idarə edəcəklər. Əslində yüksək təhsilli insanların, ixtisasını yüksək səviyyədə bilənlərin əksəriyyəti həyatda düzgün zaman və anda öz yerini tutur. Bunun üçün də ölkədə ilk növbədə yüksək təhsilə və sistemli şəkildə təhsil siyasətinə üstünlük verilməlidir ki, alınan və verilən təhsil məzunun sonrakı həyatında ona yararlı olsun. Hələ ki, ölkənin təhsil sistemində müəyyən çətinliklər, çatışmazlıqlarla yanaşı gənclərin yüksək təhsilə doğru yol alması və marağında olması təqdirəlayiq haldır. Ən yeni nəsilə, şagirdlərə də bu bir örnəkdir.

Elmi, təhsili öz həyatında yüksək tutan qabaqcıl şagirdlərdən biri ilə bu yazıda tanış olmaq olar. Söhbət Fatimə Nuruzadədən gedir. Nuruzadə Fatimə Mürşüd qızı 21 iyul 2009-cu ildə ölkəmizin isti rayonlarından biri olan Sabirabad rayonunun Kürkəndi kəndində anadan olub. Adı kimi özü də gözəl olan Fatimə 2015-ci ildə Kürkəndi kənd ümumi orta məktəbinə yollanıb. İndi həmin məktəbin 4-cü sinifində təhsil alır. Müəllimlərinə və dərslərinə böyük sevgisi olan Fatimə ilk sinifdən artıq öz bacarıq və aktivliyi ilə seçilən şagirdlərdən olub. Bu savadlı müsahibimizin ən cox sevdiyi dərslər ana dili və riyaziyyatdır. Bütün müəllimlərini çox sevən Fatimə, Ülviyyə müəlliminə xüsusilə rəğbət və hörmət bəsləyir. O, boş vaxtlarında anasına kömək etməyi özünə borc bilir. Atasının ona çox diqqət etdiyini və dərslərinə də kömək etdiyini söyləyir. Atası Mürşüd bəy qəssab işləyir. Anası isə evdar qadındır. Bu mehriban ailə 5 nəfərdən ibarətdir. Fatimənin 2 qadaşı var. Fatimə həm də 2-ci sinifdə oxuyan qardaşına dərslərində kömək etməyi də unutmur. Redaksiyamız adından Fatiməyə uğurlar diləyir, gələcəkdə bilikli və savadlı müəllim olmağını arzulayırıq. Cəmiyyətin görən və dərk edən üzvü olmaq məsuliyyətli olduğu qədər həm də güclü savad və iradə tələb edir ki, belə simalardan olmağın həm müəllimlərinin, həm də doğmalarının sevinci, fəxri olar.



# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

## DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



## DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

## DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S. Vurğun və S. Rüstəmin, musiqisi Ü. Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli "Azərbaycan marşı" Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

## Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır

Heydər Əlirza oğlu Əliyev



**Zərifə Əziz qızı Əliyeva**
Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**
Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



# CƏSUR MƏMİYEV





**"Kitab olmayan ev ruhdan ayrılan bədənə bənzər"**

***(Siseron)***

Elm insanları sülhə,düzgünlüyə sövq edən bir məfhumdur. Əvəz yerə deyilməyib ki, kamilliyə can atan insan gərək elmin bütün sirlərini öyrənib onu daha dərindən dərk etməyi bacarsın. Kim ki,elm öyrənib tətbiq etmir, yeri əkib becərən, amma məhsuldan istifadə etməyən adama bənzəyir. Seçdiyimiz peşədən asılı olmayaraq hər sahədə insan müəyyən savad və biliyə malik olmalıdır. Jurnalımızın adətinə uyğun olaraq sizləri çalışqan, zəhmətkeş, dərslərinə ciddi yanaşan Cəsur ilə daha yaxından tanış edəcəyik.

Məmiyev Cəsur Qamət oğlu 2009-cu il 14 iyul tarixində Sabirabad rayonu Qaralar kəndində anadan olub. Cəsur 2015-ci ildə Sabirabad rayon Qaralar kənd Səməd Qasımov adına tam orta məktəbinə qədəm qoyub. Hazırda 4-cü sinifdə oxuyan Cəsur bütün müəllimlərinin zəhmətkeş və peşəkar olmasından razıdır. Hər bir şagird kimi onun da gələcəyinə dair bir sıra xəyalları var. O, bildirib ki,ən böyük xəyalı hərbiçi olmaqdır. Çünki vətən sevgisi, vətən qeyrəti onun üçün önəmlidir.

Hər bir ölkənin qüdrətini göstərən əsas cəhətlərdən biri onun ordusu, əsgərinin vətənpərvərlik ruhudur. Əgər bu ruh yoxdursa, qüdrətdən, vətənin etibarlı müdafiəsindən danışmağa dəyməz. Adı kimi Cəsur olan bu ağıllı bala gələcəkdə xalqını, dövlətini qorumağı düşünür. Asudə vaxtlarını əsasən kitab oxumağa sərf edir. O, daha çox çalışır ki, arzu və istəklərinə çata bilsin. Elə onun ailəsi də bunu istəyir.

Atası Qamət bəy 1979-cu ildə Sabirabad rayon Qaralar kəndində anadan olub. Anası Saatlı rayon Nəriman kəndində anadan olub, evdar xanımdır. Hər bir valideyn kimi onlarda övladlarını gələcəkdə bilikli,savadlı, vətənə və millətə layiq bir vətəndaş kimi görmək istəyir. Cəsurun bir bacısı və bir qardaşı var. Bacısı 8-ci sinif qardaşı isə 5-ci sinifdə təhsil alır.

Biz də öz redaksiyamız adından bu ağıllı balaya gələcək həyatında bol uğur və arzuladığı peşəni layiqincə yerinə yetirməyi, vətənin daim keşiyində durmağı diləyirik.

# ORUC MƏMİYEV





**"Kim ki, elm öyrənib tətbiq etmir, yeri əkib becərən, amma məhsulundan istifadə etməyən adama bənzəyir"**
***(Nəvai)***

Bütün elmlərin bünövrəsi təhsil ilə qoyulur. Müəllimlər və valideynlər uşaqlara elə ilk məktəb illərindən təhsilə elmə olan marağı artırmalı və onları dərslərə cəlb edəcək vasitələr yollar axtarıb tapmalıdır. Övladının gələcəyini düşünən hər bir valideyn onlara dərslərində yaxından kömək olmalı və dəstək durmalıdır. Belə olduğu halda uşaqlar dərslərini daha yaxşı qavrayar və dərk edər. Bu jurnalın bacarıqlı qəhrəmanlarından biri ilə sizi daha yaxından tanış etmək istəyirəm. Söhbət Oruc Məmiyevdən gedir.

Oruc Məmiyev Qamət oğlu 2007-ci il oktyabr ayının 3-ü Sabirabad rayonu Qaralar kəndində dünyaya göz açıb. Oruc 2014 -cü ildə Səməd Qasımov adına Qaralar kənd ümumi orta məktəbində təhsil almağa başlayıb. Hal-hazırda o, elə bu məktəbin 5- ci sinifində təhsilini davam etdirir. Oruc çalışqan və ağıllı oğlandır. O deyir ki, bütün dərslər onun üçün önəmli və vacibdir. Elə məhz buna görə də, Oruc hər bir fənni yaxşı oxumağa çalışır. Müəllimlərinin zəhmətkeş olduğunu deyən bu ağıllı bala, hər zaman onların sözlərinə qulaq asır. Oruc çox fəal şagirdir və o dərslərinə kifayət qədər vaxt ayırır. Əziyyətinin nəticəsi olaraq, Oruc artıq əlaçı olub. Gələcəkdə ən böyük arzusu savadlı bir həkim olmaqdır. Həkim peşəsi olduqca məsuliyyətli və çətindir. Bu qədim sənəti seçən insan daim fövqəladə vəziyyətlərə hazır olmalı və insanlara yardım etməlidir. Əlbəttə ki, bu geniş qəlb və insanlığa dərin məhəbbət tələb edir. Həyat üçün məsuliyyət daşımağa hazır olmaq lazımdır. Orucun da, ən böyük arzularından biri, həkim sənətinə yiyələnmək, onun sirlərini bilmək və doğma respublikamızın səhiyyəsinə öz töhfəsini verməkdir. O, asudə vaxtlarını yaxşı dəyərləndirmək üçün mütəmadi kitab oxuyur, mütaliə edir.

Orucun ailəsi 5 nəfərdən ibarətdir. Atası Məmiyev Qamət 1979-cu ildə anadan olub. Anası Məmiyeva Rəmziyyə xanım 1986 -ci ildə anadan olub. Onlar Orucun həkim olacağı günü səbirsizliklə gözlədiklərini söylədilər. Orucun bir qardaşı və gözəl bir bacısı var.

Redaksiyamız adından Oruca dərslərində hər zaman yaxşı qiymət almağı və bütün arzularına çatmağını arzu edirik.



# Zərifə Əziz qızı Əliyeva



**Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.**

1942-ci ildə orta məktəbi bitirdiktən sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə həmin institutu bitirmişdir.

Sonra o, Moskva şəhərində Mərkəzi həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmolgiya üzrə ixtisaslaşdırma kursu keçmişdir.

1950-ci ildə Zərifə xanım Əliyeva aspiranturaya daxil olmuş və 1953-cü ildə buranı bitirmişdir.

1957-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilə qədər böyük elmi işçi, 1967-ci ildən isə Ə. Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H. Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilmişdir.

Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Zərifə xanım Əliyeva yüksək ixtisaslı səhiyyə kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologiyi" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z. Ə. Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M. İ. Averbax adına mükafatına layıq görülmüşdür. Geyd olunmalıdır ki, professor Z. Ə. Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətlərini qiymətləndirərək, 1983-cü ildə Zərifə xanım Əliyevanı Azərbaycan SSR EA-nın akademiki seçdilər.

Zərifə xanım Əliyeva göstərdiyi xidmətlərinə görə orden və medallarla təltif olunmuşdu. Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atası-

# Onun xalqı üçün gördüyü işlər danılmazdır və gözümüzün önündədir



***Heydər Əliyevin demokratik dəyəri qiymətləndirmək bacarığı, öz xalqına gələcəyi uğrunda düşüncə və baxışları hər kəsi düşündürməyə səsləyirdi və məhz bunun nəticəsidir ki, İlham Əliyevin apardığı siyasət bu ardıcıllığı özündə təsdiqləyir.***

Dövlətimizin mənafeyi uğrunda aparılan siyasi tədbirlər Heydər Əliyev ideyalarının layiqli davamçısı, gənclərimizin fəxri olan İlham Əliyevin timsalında daha işıqlı gələcək vəd edir. Öz xalqının mənafeyi uğrunda çalışan bir insan İlham Əliyev haqqında danışmaq və söz demək çətin və məsuliyyətli olsa da, onunla bağlı xoş hisslər heç vaxt məni tərk etməmişdir. Xalqın ləyaqətli oğlu İlham Əliyevdən danışarkən ilk növbədə, onun neft proqramını işlənib həyata keçirilməsindəki uğurlu fəaliyyəti ölkəmizdə idmanın hərtərəfli inkşiafı, xüsusilə də xarici siyasət məsələlərində əldə olunan böyük nailiyyət Avropa Şurasında Azərbaycanın ləyaqətlə təmsil olunması nəzərə çarpır. Bu isə Azərbaycanın xarici siyasətində aparıcı yer tutur. İlham Əliyevin hələ seçkiqabağı çıxışları. siyasətlə bağlı fikirləri, yenilik duyğusu hər bir azərbacanlını düşündürməyə bilməz. Bütün bu düşüncələr isə bir amala xidmət edir. Onun haqqında ürək sözlərini fəxr və qürurla söyləməyə sövq edir. Hamıya bəllidir ki, hakimiyyət sükanının səriştəli siyasətçi əlində olması Azərbaycanın inkişafı və çiçəklənməsi deməkdir.

Yalnız görkəmli ictimai xadiim Heydər Əliyev səviyyəsində olmağa qadir olanlar prezidentimizin davamlısı ola bilərlər. Bunun üçün Heydər Əliyevin siyasi məktəbini öyrənmək, onun fəaliyyət fenomeninin incəliklərini dərk edib zəngin təcrübəsindən bəhrələnmək lazımdır. Dünya şöhrətli Heydər Əliyevin oğlu İlham Əliyev isə əsl siyasət məktəbi keçmiş bir şəxsiyyətdir. O, atasından dövləti idarə etmək məsuliyyətini, beynəlxalq əlaqələri düzgün istiqamətləndirmək prinsiplərini siyasi şərtləri və siyasi imici yüksək qiymətələndirməyi çox düzgün mənimsəmişdir. Atanın fəaliyyəti oğula örnək oldu. Ata oğul üçün ideala çevrildi. Atadan oğula bir yol başladı. Bu, haqq yoludur.

Uzun əsrlərdən sonra Azərbaycan öz dövlətçiliyi uğurunda mücadiləyə başladı. Milli azadlıq hərakatı yolunda uğurlu addımlar atıldı. Xalq yaranmış vürsəti əldən vermədi. Şah İsmail Xətainin yaratdığı Azərbaycan dövlətinin 20-ci əsrin əvvəllərində (1918-20-ci illərdə) yenidən bərpasının davamına 21-ci əsrin astanasında yenidən başlandı. Bununla yeni dövrə keçidin bünövrəsi qoyuldu. Amma müstəqilliyinin qazanılması ağrısız-acısız ötüşmədi. Nəhəng dövlətlərin əlində tarix boyu alət olmuş Ermənistan ölkəmiz üçün ən güclü əngələ çevrildi. Təzəcə ayaq tutmaq istəyən müstəqil respublikamıza qarşı elan olunmamış müharibə başladı.

Keçmişimizi xatırlamaqla bu günümüzlə müqayisə etmək istədim. Bu gün xalqımız azad, demokratik şəraitdə yaşayır. Bunun səbəbkarı isə məhz İlham Əliyev cənablarıdır. İlham Əliyev ömrünü xalqa həsr edib. Biz hamımız onu sevir, onunla fəxr edirik, onun adı hamı üçün müqəddəsdir.

# SALMANOV POLAD



**Qüvvət elmdədir, başqa cür heç kəs,**
**Heç kəsə üstünlük eyləyə bilməz.**
**Hər uca rütbədən biliniz, fəqət,**
**Alimin rütbəsi ucadır əlbət.**
***(Nizami Gəncəvi)***

"Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun. Elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin"-demişdir Bəhmənyar. Düzdü yaxşı kitab insana bir ömür sadiq dost olur, yaxşı kitabın məlumatı insana bəzən nə vaxtsa yardımçı olur. Bütün bunları anlayan və özünə savad, bilik, elm qazanmaq yolunda yol-yoldaşı olaraq kitablarını seçən şadirdlərimizdən biri də Poladdır. Polad həm bacarıqlı, həm də savadlı bir şagird kimi jurnalımızın bu yazısının qəhrəmanı olaraq seçilib oxucularına təqdim edilir.

Salmanov Polad Vüqar oğlu 10 iyul 2006-cı ildə Bakı şəhərində anadan olmuşdur. Dünyaya gəldiyi gündən ailəsinə sevinc bəxş edən Polad 2013-cü il 15 sentyabrda Ağdam rayon 32 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Məktəbə başladığı ilk günlərdən dərslərinə göstərdiyi maraq onu müəllimlərinin sevimli şagirdinə çevirmişdi. Hal - hazırda həmin məktəbin 7b sinif şagirdi olan Polad vaxtının çox saatını dərslərinə ayırır və yeni biliklər əldə etmək üçün çalışır. Elm, savadı önəmli bir məfhum kimi görən Polad bütün fənlərini sevir. Amma riyaziyyat fənnini daha çox sevir. Ali təhsilli olmağı, savad əldə etməyi qarşısına məqsəd qoyan Polada bu yolda ona ən böyük köməyi müəllimləri və valideyinləri göstərir. Ona elm öyrədən hər bir müəlimini sevir və hörmət bəsləyir. Lakin, Rəşadət və Xuraman müəllimlərini bir ayrı sevgi ilə sevir. Onun arzusu gələcəkdə şahmatçı olmaqdır. Onun şahmata böyük marağı var və aktiv məşğul olanıdır. Bu sahə üzrə uğurları olan Polad həmçinin də Heydər Əliyev adına Ağdamda komandalar arasında yarışda 1-ci yer tutmuşdur. Boş vaxtlarında kitablar oxuyan Poladın mütaliəyə böyük marağı var. Onu hər zaman dəstəkləyən ailəsi 4 nəfərdən ibarətdir.

Atası Salmanov Vüqar Kərəm oğlu və anası Salmanova Şəhla Tahir qızı 1986-cı ildə anadan olub. Qardaşı Salmanov Cəsur Vüqar oğlu 2009-cu ildə Bakıda anadan olub. Bacısı Salmanova Gülnar Vüqar qızı 2007-ci ildə Bakı şəhərində anadan olub.

İnsanlar təhsil üçün deyil, təhsil insanlar üçün olduğuna görə arzu edək ki, Polad da adı kimi möhkəm və cəsarətli olub elm, təhsil yolunda böyük uğurlara imza atar, həyatını layiqli bir şəkildə qurar. Biz də öz jurnalımız adından Polada uğurlar diləyərək ona yolun açıq olsun deyirik.

# ƏHMƏDOV ŞAKİR



**Elm yarandıqdan sonra hər şey zaman-zaman onun qiyafətinə bürünüb səliqə-sahman tapdı və günlərin birində o özünə də öz donluğundan paltar biçmək fikrinə düşdü. Elm yolu bumeranqı xatırladır, nə qədər uzağa getsə də, yenə ilkin əsaslara qayıdırsan. Elmdə heç bir ideya əhkam deyil; hər bir adam ən məşhur alimin ən çox yayılmış ideyasını da istənilən vaxt yenidən yoxlamaq səlahiyyətinə malikdir.**
***(ƏBU TƏRXAN)***

Elmin, təhsilin mənəvi siması onun kimin əlində olmasından asılıdır. Əlbəttə əsərləri olmayan alim meyvə gətirməyən ağaca bənzəyir. Gərək elm adamı öyrəndiklərini, araşdırıb üzə çıxartdıqlarını tətbiq edə, özündən sonrakı nəslə yadigar olaraq ötürə. Hər hansı bir elmin açarı sual işarəsidir ki, bunun da cavabını tapmaq üçün müəllim adlı müqəddəs peşə sahiblərinə böyük ehtiyac var. İlk həyat dərsi, təhsil çarçıları onlardır. Onlar ləyaqət və vicdanla peşələrinə sadiq çıxıb tədrisi keyfiyyətli apararlarsa onda cəmiyyətin təhsilli gələcəyi əmin əllərdə olur.

Əhmədov Şakir Raul oğlu 11 avqust 2007-ci ildə Sumqayt şəhərində anadan olmuşdur. 2013-ci ildə Qubadlı rayon Ç. Quliyev adına Çardaxlı kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 6-cı sinif şagirdi olan Şakir dərslərində çox uğurludur və sinif əlaçısıdır.

Şakir düşünür ki, əgər bir şeydə uğur qazanmaq istəyirsənsə etdiyin işi çox sevməlisən. Ona bu düşüncəni aşılayan isə onun müəllimləridir. Şakir də öz işini böyük həvəslə və istəklə, usanmadan, yorulmadan edir. Həmçinin də ailəsi bu yolda onun böyük dəstəkçiləridir. Şakirin məqsədi gələcəkdə ali məktəbə daxil olmaqdır və biliyini, savadını daha da irəli pilləyə aparmaqdır. Ona elmi, savadı sevdirən evdə ailəsi, məktəbdə isə sevimli müəllimləridir. Şakirin ən sevdiyi müəllimləri Salmanov Çingiz müəllim, Gültən müəllim və sinif rəhbəri olan Əfsanə müəllimdir. Bütün fənləri maraqla oxusa da aralarında, ingilis dilinə xüsusi bir marağı var. Şakirin arzusu gələcəkdə ingilis dili üzrə tərcüməçi olmaqdır. Uğurları bol olan Şakir həm də “ İlin şagirdi “ adını almışdır. Müsahibimizlə söhbət zamanı onu da qeyd etdi ki, “ Ən böyük istəyim İlham Əliyevlə görüşüb ona təşəkkür etməkdir. ” Onun ölkə prezidentinə böyük sevgisi, sayğısı var. Məhz bundan dolayı onunla həyatda görüşüb öz ürək sözlərini bildirmək istəyir. Boş vaxtlarını idman etməklə, futbol oynamaqla keçirən Şakir asudə zamanının da səmərəli təşkilində maraqlıdır. Ailəsi 3 nəfərdən ibarətdir.

Anası Əhmədova Mehriban Cəbi qızı 7 avqust 1989 -cu ildə Sumqayt şəhərində anadan olub, hazırda mağazada işləyir. Qardaşı Əhmədov Ramal Raul oğlu 20 fevral 2010-cu ildə Sumqayt şəhərində anadan olub. Ailəsi Şakirin uğur və nailiyyətlərinin bol olmasını arzu edirlər və çalışırlar ki, hər daim əllərindən gələni ondan əsirgəməsinlər. Xüsusilə də anası Mehriban xanım. Biz də öz jurnalımız adından Şakirə gələcək həyatında ali məktəbə daxil olmağını müəllimlərini və valideynlərinin əziyyətini dəyərləndirməyi, həmçinin də onların fəxri olmağını diləyirik. Yolun hər daim açıq olsun.



# Nuruyeva Firəngiz



**Ey hörmətli müəllim**
**Hər könüldə yerin var.**
**Hər kənddə, hər şəhərdə**
**Sənin meyvələrin var.**

Firəngiz müəllimənin uzun illər çəkən elm yolu öz şagirdlərinin və onların valideynlərinin gözündə çox böyük dəyərə sahibdir. Bunu onların hər bir sözündən, rəğbətindən hiss etmək olar. Firəngiz müəllimə 1965-ci ildə Qazax rayonunun Yuxarı Əski para kəndində dünyaya göz açıb. Süleyman Rüstəm demişkən, “Müəllimin də müəllimi olubdur əlbət”. Firəngiz müəllimə də 1972 -ci ildə Aşağı əski para kəndində 1-ci sinifə gedib və müəllimlərindən hər bilgini ilmək -ilmək toxumaqla öyrənib. 1982-ci ildə məktəbi bitirdikdən sonra Bakı Məktəbəqədər Pedoqoji məktəbə daxil olub. Tələbəlik illərində şagirdlərinə öyrədəcəyi hər elmin axırına çıxağa çalışıb. 2005-ci ildə isə artıq savadı və bacarığı ilə seçilən Firəngiz müəllimə 306 saylı məktəbdə Uşaq birliyinin rəhbəri vəzifəsində çalışıb. 2006-2007 ci illərdə ixtisas dəyişmə İnstitutunu bitirərək ibtidai sinif ixtisasına yiyələnmişdir. Və bununla da şərəfli müəllimlik həyatına qədəm qoymuşdur. Hal-hazırda 306 saylı məktəbin ibtidai sinif müəllimi işləyir. Yüzlərlə şagird yetişdirən, ən önəmli təməl bilikləri öyrədən Firəngiz müəllimәni həm şagirdləri həm də valideynlər çox sevir. Valideynlərdən bəziləri ilə söhbət edərkən Firəngiz müəllimə haqqında çox yüksək və dəyərli fikirlərə sahib olduqlarını gördük. Onların sözlərinə görə, Firəngiz müəllimə şagirdləri arasında heç bir fərq qoymadan, səbr və təmkinlə onları başa salır. Dərslərdə mütəmadi iştirak edən valideynlər bildirdilər ki, hər zaman dərsdən xoş təəssüratlarla ayrılıblar. Mehribanlığı, gülərüzlülüyü və savadı ilə şagirdlərin və valideynlərinin qəlbində taxt qurub Firəngiz müəllimə.

# İqbal Hüseyinov



**Dünyada nə qədər kitab var belə**
**Çalışıb əlləşib gətirdim ələ**
**Oxudum, oxudum, sonra da vardım**
**Hər gizli xəznədən bir dürr çıxardım.**
**(Nizami Gəncəvi)**

İqbal həyatında bu sözləri özünə şüar seçərək ömür yollarında irəli addımlamağa başlayıb. Həm elm həm idmanda olan uğurları bunu göstərir ki, daima öz üzərində çalışıb, irəli getməyə can atan gənclərimizdən biridir. İqbal Hüseyinov 18 oktyabr 2001-ci ildə Sumqayıtda anadan olub. Sanki doğulanda alnına yazılmışdı onun kiçik yaşlarından olacaq uğurları. 2007 -ci ildə Masazırda Laçın rayonu 15 saylı tam orta məktəbin birinci sinifinə başlayıb. Məktəbi əla oxumaqla yanaşı uşaqlıqdan idmana olan həvəsi ilə seçilib. İqbal uşaq yaşlarından başlayaraq güləş və qaydasız döyüş idman növləri ilə məşğul olurdu. Qaydasız döyüş üzrə 2 dəfə Azərbaycan çempionu olub, dəfələrlə müxtəlif turnirlərdə iştirak etməklə fərdi qalibiyyətlər və mükafatlar qazanıb. İqbal həmçinin güləş üzrə də Azərbaycan çempionatında iştirak edib, 2-ci və 3- cu yerlərdə qərarlaşıb. Bu az yaşına rəğmən əldə etdiyi uğurlar onun gələcəkdə də necə bir şəxsiyyət kimi formalaşacağının əlamətləridir.

2013 -cü ildə müəyyən səbələrdən Kəlbəcər rayon 126 saylı tam orta məktəbin 6-cı sinifinə başlayır. 2018 ci ildə isə ele həmin məktəbin 11-ci sinifini bitirir. DİM-in təşkil etdiyi imtahanlar da da müvəffəqiyyətlə nəticə göstərib, ali məktəbə qəbul olur. İqbal Azərbaycanın ən prestijli universitetlərindən biri olan Azərbaycan Dövlət İqtisad Univeristetinin Dünya iqtisadiyyatı fakultəsinə daxil olub. Hal- hazırda tələbəliyin dadını çıxarmaqla yanaşı, daima öz üzərində çalışır və daha çox nailiyyətlər əldə etmək istəyir. Atası Qaçay bəy və anası Əfsanə xanımın ən böyük arzularından biri övladlarının hər bir uğuruna ürəklə sevinmək və onun arxasında dayanmaqdır. Uşaqlığından bəri qoçaqlığı, əzmi və iradəsi ilə seçilən İqbal gələcəkdə də hər zaman inkişaf edəcəyini deyir.

Onun yaxınları, qohumları, ailəsi, bir sözlə onu tanıyan hər kəs düşünür ki, "İqbal çalışqanlığı, istedadı və zəkasının gücü və səyləri nəticəsində qazandığı uğurların davamı olaraq, gələcəkdə də Azərbaycanın ən hörmətli ziyalılarından biri olacaq. " Biz də ümid edir və arzulayırıq ki, İqbal Azərbaycanın adını layiqincə yüksəklərdə ucaldacaq ən fəal gənclərindən olsun.



# LEYLA HƏŞİMOVA



**"İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz, ağlın kəskin olması lazımdır"**
***(Əbu Turxan)***

Elmin mənbəyi evimizdən, bağçadan və məktəbdən başlanır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Bu işdə bilikli, dünyagörüşlü, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük rol oynayır.

Daş-qaş əvəzinə özünə bilik yığsan daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz.

Qazandığı bilikləri özündə bir sərvət kimi saxlayan və daha da irəliyə aparmağa çalışan şagirdlərimizdən biri də Leyladır. O, təhsilin, savadın insan həyatındakı önəmini də, vacibliyini də yaxşı başa düşür.

Həşimova Leyla Adil qızı 2 iyul 2007-ci ildə Cəbrayıl rayon Böyük Mərcanlı kəndində anadan olub. 2013-cü ildə 99 saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 6-cı sinif şagirdidir. Məktəbə başladığı ilk günlərdən dərslərinə olan marağı onu sinifdə digər yoldaşlarından fərqləndirib. Məsuliyyəti və çalışqanlığı ilə müəllimlərinin sevgisini və hörmətini qazanan Leyla hər zaman dərslərinə hazır olub və sinif əlaçı olub. Sinif əlaçısı olan Leylanın bütün dərslərə olan marağı onu dərslərində əlaçı olmağa sövq edib, lakin, ən sevdiyi fənlər Azərbaycan dili və rus dilidir. Bu və digər fənləri ona sevdirən müəllimlərinin hamısını sevir və onlara böyük rəğbət hissi bəsləyir. Leylanın məqsədi dərslərini əla oxuyub gələcəkdə müəllim olmaqdır. Müsahibimiz onu da qeyd edir ki, bu şərəfli peşəyə sahib olma istəyini onda müəllimləri yaradıb, yəni təməli onlar qoyub. Leyla deyir ki, insan sahib olduğu peşəni hər zaman məsuliyyətlə və layiqincə yerinə yetirməlidir. Müəllimlərinin də öz işlərini düzgün və məsuliyyətlə, həvəslə yerinə yetirmələri onda bu sənətə maraq və sevgi hissi oyadıb. Boş vaxtlarında kitab oxumağı sevən Leylanın ailəsi 5 nəfərdən ibarətdir. Atası Həşimov Adil Fehruz oğlu 1970-ci il aprelin 6-da Cəbrayıl rayon Böyük Mərcanlı kədində anadan olub, hazırda müəllim işləyir. Anası Həşimova Səidə Cəfər qızı 14 iyun 1977-ci ildə Xankəndi rayonunda anadan olub, ixtisasca müəllim olan Səidə xanım hal-hazırda şirkətdə çalışır. Qardaşları Həşimov Yasin Adil oğlu, 28 fevral 1997-ci ildə anadan olub, hazırda işləyir. Həşimov Rüstəm Adil oğlu 11 mart 1998-ci ildə Bakı şəhərində anadan olub, hazırda həm Sumqayıt Dövlət Universitetində oxuyur, həm də çalışır. Ailəsi də ziyalı, təhsilli ailə olduğundan Leylanın da təhsilinə çox önəm verib, daim diqqətdə saxlayırlar.

Elmi olub, ağlı olmayan adama elm əziyyət verər. Biz də öz jurnalımız adından Leyla balamıza gələcək həyat yolunda uğurlar diləyir, bütün arzularına catmağı arzu edirik. Qoy elmi ilə, ağlı ilə öz ömür yolunu bəzəyib, layiqli şəxslərdən biri olsun. Hər zaman valideynlərinin və müəllimlərinin fəxri olasan və səsin daim ucalardan gəlsin. Yolun açıq olsun!

# MƏMMƏDZADƏ ASİM







**"Elmin dəyirmanına su tökənlər, bəzən bu dəyirmanın kimin üçün üyütdüyünün fərqində olmurlar"**

***(Əbu-Turxan)***

Bir xalq yalnız savadlı cəmiyyəti, inkişaf etmiş elmi ilə qürur duya bilər. Yalnız savadlı cəmiyyətlə irəli getmək, uğurlara nail olmaq, ölkəni tanıtmaq mümkündür. Elmin vacibliyini hələ qədim zamanlardan dərk ediblər. Ta qədim zamanlardan elmdə nailiyyətlər əldə etmək üçün çalışıblar. Biz hamımız həyatımızda əldə etdiyimiz nailiyyətlərə,bütün varlığımıza görə müəllimə borcluyuq. Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının,

fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Savadlı insan həmişə həyatında özünə düzgün yön seçə, doğru qərarlar verə bilir. Elmin, savadın, biliyin mahiyyətini dərk edən və bu yolda irəliləməyə çalışan şagirdlərimizdən biri də Asimdir.

Məmmədzadə Asim Fəqan oğlu 6 sentyabr 2008-ci ildə anadan olmuşdur. 2014 -cü ildə Ağdam rayon 149 nömrəli tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdi olan Asim oxuduğu illər ərzində əlaçı şagird olmuşdur. Məktəbə başladığı ilk günlərdən müəllimlərinin sevgisini və rəğbətini öz tərbiyəsi, çalışqanlığı ilə qazanmışdır. Asim ona tədris olunan bütün fənləri sevir və ona bu fənləri sevdirən müəllimlərinə öz təşəkkürünü bildirir. Bütün müəllimlərini xüsusi bir sevgiylə sevən Asim onların onun üzərində olan əziyyətini qiymətləndirmək üçün əlindən gələni edir. Asimin məqsədi orta məktəbi əla qiymətlərlə bitirib ali məktəbərin birinə daxil olsun və savad, bilik yolunda bir pillədə irəli addımlasın. O, deyir ki, insan hansı peşənin sahibi olur olsun əsas odur ki, öz ixtisasını yüksək səviyyədə biləsən və peşəni öz millətinə, xalqına şərəfinlə, layiqincə icra edəsən. Onun ən böyük dəstəkçiləri isə valideynləri və müəllimləridir. Asim yaşının az olmasına baxmayaraq valideynlərini sevindirməyi və onların fəxri olmağı bacarır. Asim dərsləri ilə yanaşı boş vaxtlarında şeir yazmaqla da məşğul olur. Şer ilə hiss etdiklərini, dərk etdiklərini, arzu və istəklərini ifadə edərək mənəvi bir rahatlıq tapır. Şair ruhlu müsahibimizə biz də öz növbəmizdə uğurlar arzulayır, müvəffəqiyyətlərinin daimi olmasını diləyirik. Arzu edirik ki, ali məktəbə qəbul olub öz istəklərinə çatsın və valideynlərinin, ona on bir il dərs deyən müəllimlərinin başını hər daim uca edib, onların fəxri olsun. Ömür yolu asan olmasa da qoy elm və təhsil onun yolunu uğurlu zirvələrə doğru ucaltsın.





# Salmanov Sahib



**Kəssə hər kim tökülən qan izini,**
**Qurtaran dahi odur yer üzünü.**

***(Hüseyn Cavid)***

Hüseyn Cavidin bu gözəl sözlərindən feyz alaraq Sahibin gələcəkdə etmək istədikləri, arzusunda olduğu peşəni görə bilərik. Çünki Sahib gələcəkdə vətənpərvər bir polis olaraq, xalqının, ailəsinin, dövlətinin keşiyini çəkmək arzusundadır. O düşünür ki, yaxşı, vicdanlı bir polis olmaqla bacardığı qədər qanunsuzluqların, pis əməllərin qarşısını alacaq. Həqiqətən də belə şərəfli bir peşəni seçməklə əslində uşaq olsa da, necə ağıllı və böyümüş olduğunu görə bilərik.

Salmanov Sahib Elşad oğlu 2009-cu ildə iyulun 7-də ölkəmizin əvəzedilməz guşələrindən biri olan Gəncə şəhərində doğulub. Ailənin tək oğul övladı olan Sahibə uşaqlığından bəri vətənpərvərlik hissi aşılanıb. Daima qarşısındakılara olan hörmət və ehtiramı ilə seçilib. Onun məktəblə ilk tanışlığı 2015 -ci ildə Kəlbəcər rayon tam orta məktəblə olub. Həmin məktəbin 1-ci sinifinə başladığı andan etibarən böyük həvəs və istəklə oxumağı və yazmağı öyrənib. Hal - hazırda həmin məktəbin 4-cu sinifində oxuyan Sahib dəsrlərində cox uğurludur və sinif əlaçısıdır.

Sahib düşünür ki, əgər bir şeydə uğur qazanmaq istəyirsənsə etdiyin işi çox sevməlisən. Ona bu düşüncəni aşılayan isə Sahibin atası Elşad bəydir. O da oz işini böyük həvəs və istəklə, bezmədən edir. Həmçinin anası Mehriban xanım da illərdir ki, bezmədən, usanmadan şagirdlərinə sevərək bilik öyrədir. Ailə təməllərindən bunu görən Sahib də həvəslə oxuyub irəli getmək və çalışdığı işdə uğur qazanmaq istəyir. Böyük bacısı Nigar da ona bu yolda daima dəstək olur.

Sahib dərslərində bacarıqlı olduğu qədər, futbol oynamağı da çox sevir. Qatı futbol azarkeşi olmaqla yanaşı, həm də məhəllədə tez-tez dostları ilə futbol oynayır və çox zaman qalib gələn tərəf olur. Bu qalib gəlmək, bacarmaq istəyidir ki, Sahibi gələcəkdə çox irəliyə çəkəcək. Və arzusunda olduğu polis vəzifəsinə yiyələnəcək. İnanırıq və arzulayırıq ki, Sahib ailəsinin, müəllimlərinin və ona inanan hamının ümidlərini doğruldacaq, gələcəkdə qazanacağı bütün nailiyyətləri ilə hamı onunla fəxr edəcək.

# Sultanov Salman



***Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bu günkü və gələcək mənəviyyatı bununla bağlıdır.***

***Heydər Əliyev***

Bütün həyat və yaradıcılığını dinlədikdə əslində canlı tarix demək olar bəlkə də Salman müəllimə. Keşməkeşli həyat yollarından keçməklə uzun zaman ərzində çoxlu və dəyırli vəzifələrdə çalışıb. Salman müəllim 1951-ci ildə Azərbaycanın ən gözəl səfalı guşələrindən biri olan Kəlbəcər rayonunda dünyaya göz açıb. Elə həmin rayonun Almalı kənd orta məktəbini bitirib. Məktəb illərindən necə bilikli və dünyagörüşlü olmağı elə o vaxtkı müəllimləri tərəfindən aydınca sezilirdi. Məktəbi 1969-cu ildə bitirdikdən sonra Gəncə Dövlət Universitetinin Tarix fakultəsinə qəbul olur və 1973 cü ildə tələbə yoldaşlarından fərqli bilik və bacarıqları ilə məktəbi bitirir. Uşaqlıq və tələbəlik həyatı rəngarəng olduğu kimi iş və vəzifə həyatı da çox geniş olur Salman müəllimin. Universiteti bitirər-bitirməz öz doğma kəndinə qayıdaraq müəllim işləməyə başlayır. Öz müəllimlərindən öyrəndiyi bilik və bacarıqları bu dəfə parta arxasında əyləşən şagirdlərinə öyrədir səbrlə. 1974-1975 ci illərdə Ali Partiyada işə qəbul olur. 1975-1978 ci illərdə isə öz doğma məktəbinə direktor kimi qayıdır artıq. Salman müəllim dövrünün ən gənc fəallarından biri olur. Daima öz üzərində işləməklə uğura gedən yolunu özü yazır, demək olar ki. Gənc yaşlarında Xalq İcrayət Komitəsinin sədri seçilir. Və təbii ki bununla da bitmir Salman müəllimin gördüyü işlər. Müxtəlif illərdə rayon sovetinin deputatı, kənd sovetinin deputatı vəzifələrində çalışır. Bitmək bilməyən arzu və istəyi ilə daim irəliyə can atır. 1980-ci ildə Ağdam rayonunun Şıxbabalı kənd orta məktəbində direktor vəzifəsində çalışır. 1993-cü ildə isə Kəlbəcər rayonu 41 saylı tam orta məktəbdə müəllim işləyir. 1999-cu ildən 2014- cü ilə qədər kəlbəcər rayonu 126 saylı tam orta məktəbin direktoru olmuşdur. Hal- hazırda isə Salman müəllim həmin məktəbin ən peşəkar və bilikli tarix müəllimlərindən biridir. Salman müəllimin sözlərinə görə onun həyat qayəsi öz zəngin təcrübə və biliklərini illərdir yetişdirdiyi çox saylı tələbələrinə öyrətməkdir. Bizə də belə bir şərəfli müəllimin zəhməti qarşısında baş əymək düşür.



# PAŞAYEVA CƏMALƏ



**"Əgər mən başqalarından daha uzaqları görə bilmişəmsə, onda bu yalnız nəhənglərin çiyinlərində durduğuma görə mümkün olmuşdur"**

***(İsaak Nyuton)***

İnsanın bildiyi və öyrəndiyi şeylər bilmədiyinin müqabilində heç dərəcəsindədir. Təhsil üçün deyil, təhsil onlar üçündür. Hədəf və məqsədi bəlli olan bir elm - sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir. Bu xəzinəyə malik olanlar yaşadıqları müddət ərzində hətta daha sonraları da bir şirin su qaynağı kimi daim ziyarət edilir və xeyrə vəsilə olurlar. Məhşur yunan müdriklərindən biri olan Solonun bu fikri ayrı-ayrı insanlara deyil bütün bəşəriyyətə söylənilən nəsihətlərdən biridir: "Nə qədər ki, yaşayırsan öyrən, gözləmə ki, qocalıq gələndə sənə kamal gətirəcək. "

Bəli, həyat bizə ömür yolu cızmır, əslində biz bəlli zaman kəsiyində olan ömür yolumuzu özümüz hardasa cızır və ona istiqamət veririk. Onu da gərək zamanında düşünüb düzgün qərar verməklə cızasan ki, sonradan peşman olmayasan. Elm-təhsil yolunu seçənlərin heç bir zaman peşman olmadığını nəzərə alsaq bu yolda addımlamağı bütün gənclərə və məktəblilərə məsləhət görmək yerinə düşər. Elə bu istiqamətlə yola çıxdığımız jurnalın da əsas mövzusu təhsili və bu sahədə seçilənlərin təbliğidir.

Həyat yolunda da öyrənməyi, təhsil almağı, bilik qazanmağı seçən şagirdlərimizdən biri də Paşayeva Cəmalədir. Bu yazı ilə onu oxucularına tanıtmaq və həyat yoluna sitimul verməkdir.

Paşayeva Cəmalə Cəlal qızı 13 aprel 2008-ci ildə Lənkəran rayonunda dünyaya göz açıb. 2014-cü ildə Füzuli rayon 1 saylı tam orta məktəbin 1-ci sinfinə getməklə insan həyatının şərəfli və məsuliyyətli mərhələsinə qədəm basıb. Məktəbə başladığı ilk gündən həm çalışqanlığı, zəkası ilə, həm də təlim-tərbiyəsi ilə müəllimlərinin diqqət mərkizində olmağı bacarıb. Hal-hazırda həmin məktəbin 5-ci sinifində təhsil alır. Cəmalənin ən çox sevdiyi fənlər və müəllimlərdən - riyaziyyat fənni və onu tədris edən Firuzə müəllim, Azərbaycan dili fənni və onu tədris edən Nəsibə müəllim, ingilis dili fənni və onun müəllimi Şəhla müəllim və tarix fənni və onu tədris edən Tünzalə müəllimi öz istəyi və seçimi ilə qeyd etmək olar. Bu yaşda bu qədər fənni və müəllimləri sevmək özü bir fərasət və cəsarət tələb edir ki, artıq Cəmalə təhsilə olan müsbət mövqeyi ilə bunu bacarıb. Əslində müəllim sözü onun üçün müqəddəs olduğu üçün bu şərəfli peşə daşaıyıcılarının hər birinə onun hörmət və sayğısı böyükdür. Eləcə də bütün müəllimlərinə qarşı. Arzuladığı peşə gələcəkdə polis olmaq və ədalətin keşiyində durmaqdır. Vətəninə, millətinə şərəflə xidmət etməkdir. Çünki Cəmalə yaxşı bilir ki, indiki zamanda mütləq bir peşə sahibi, sənət adamı olmaq gərəkir ki, gərək onu da sevərək seçib gələcəkdə özünü o sahədə görəsən. Cəmalə həm müəllimlərinin, həm də valideynlərinin fəxri olmağı arzu edir. Bunun üçün isə dərslərini əla oxumalı və gələcəyinin xilasını elm-təhsil yolunda görməlidir. Bu onu həm sevdirəcək, həm sevindirəcək. Boş vaxtlarında dərsləri ilə məşğul olmağı, əlavə kitablar oxumağı və rəsm çəkməyi sevən Cəmalə istedadlı bir qızdır. Bu yaşına qədər əldə etdiyi uğurlarından onun rəqs yarışmasından 1-ci yeri tutmasını qeyd etmək olar ki, bu da onun istedadından xəbər verir. Onun ailəsi 5 nəfərdən ibarətdir. Ailəsi daima onu dəstəkləyir və gələcəyi üçün əlindən gələni əsirgəmir.

Atası Paşayev Cəlal Əjdar oğlu 3 fevral 1981-ci ildə Masallı rayonunun Boradigah qəsəbəsində anadan olub,ustadır. Anası-Paşayeva Mehriban Rasim qızı 8 aprel 1991-ci ildə Bakı şəhərində anadan olub, evdar xanımdır. Bacısı -Paşayeva Eminə Cəlal qızı 21 mart 2011-ci ildə Bakı şəhərində anadan olub, 2-ci sinif şagirdidir. Qardaşı-Paşayev Rza Cəlal oğlu 20 oktyabr 2013-cü ildə Bakı şəhərində anadan olub, 5 yaşı var.

Bütöv elmlərin bünövrəsi təhsillə qoyulur. Ümid edək ki, Cəmalə də bunun fərqində olub təhsil həyatını yüksək qiymətləndirib və dəyərləndirəcək. Biz də öz jurnalımız adından Cəmalə balamızın uğurlarının bol olmasını diləyirik. Diləyirik ki, son sinfə qədər təhsilində davamlı əlaçı və seçilənlərdən olaraq elm-təhsil həyatını uğurla davam etdirsin. Həyat uğurları ilə daim ailənin və müəllimlərinin fəxri olsun. Yolun açıq olsun!

# ABDULLAYEVA ELVİRA



**"Elm neçə əsrlər ərzində həmılıqla tikilən möhtəşəm bir məbəddir ki, onun hər bir daşını qoymaq bir çox alimlərə bütün ömrü boyu müqabilində müyəssər olmuşdur"**

**(Puankare)**

Təhsilin inkişafı hər bir ölkənin inkişaf konsepsiyasının əsas tərkib hissəsidir. Təhsilsiz bir cəmiyyətin inkişafı absurddur. Çünki təhsilli şəxs, elm öyrənən insan həyatda həmişə yaxşını pisdən seçməyə qadirdir. Elm çöldə dostumuz, tənhalıqda munisimizdir. Savadlı insan həmişə sənəd və hünər əldə edib yaxşı ad qazanmağa, özündən sonra gələcək nəsillərə xeyirli bir iz qoymağa çalışmalıdır. Elm ağlın çırağıdır. İnsanın əsl üstünlüyüdür. Təhsil alan hər bir kəs özünün həyatda həmişə bir addım öndə olduğunu bilir. Təhsili, biliyi, savadı onun üçün çox vaxt bağlı qapıların açarı olur. "Açılan hər məktəb bir həpsxananın bağlanması deməkdir"(Viktor Hüqo). Elm sanki bir müharibə meydanını xatırladır. Yaradıcı alimlər ön cəbhədə olur və əsl döyüşdə burada gedir. Savadlı insanla söhbət hər hansı bir yaxşı kitabı oxumaq qədər dəyərlidir. Elm, təhsil, savad, bilik yolunda irəliləməyə çalışan şagirdlərimizdən biri də Abdullayeva Elviradır.

Abdullayeva Elvira Rafiq qızı Şəmkir rayonunda anadan olub. 2015-ci ildə K. Ə. Mirzəyev adına Xanliq kənd 1 saylı tam orta məktəbinin birinci sinfinə getmişdir. Elvira məktəbə başladığı ilk vaxtlardan dərslərindəki fəallığına görə digər şagirdlərdən seçilirdi. Hal-hazırda həmin məktəbin 4a sinif şagirdidir. Oxuduğu bu illər ərzində dərslərində əlaçı olmaqla yanaşı məsuliyyət və mədəniyyəti ilə də siniflərində seçilib. Bir çox uğur və nailiyyətləri ilə yanaşı, imtahanlardan fəxri fərman əldə etmişdir. Onun ən çox sevdiyi fənlər riyaziyyat və ingilis dilidir. Riyaziyyat elmlərin şahı, ingilis dili isə günümüzdə əsas tələb olunan beynəlxalq dil olduğundan öyrənilməsinin vacibliyini indidən dərk edən Elvira gələcəyini indidən əmin əllərdə qurmaq istəyir. Bütün müəllimlərini sevib hörmət bəsləsə də aralarında Şəhla müəllimi, İbişova Fəxriyyə müəllimi və Məmmədova Zita müəllimi bir ayrı məhəbbətlə sevir və hörmət bəsləyir. Elviranın gələcəkdə uğur qazanmaq istədiyi peşə həkimlik peşəsidir. O istəyir ki, cərrah olsun. Boş vaxtlarında kitab oxumağı və rəsm çəkməyi sevən Elvira savad qazanmaq yolunda özünə kitabları yoldaş kimi seçmişdir. O deyirki, mütaliə insan ruhunun dərmanıdır. Gülçin gələcəkdə böyük uğurlara imza atmaq istəyir. Bu istiqamətdə bir çox arzu və planları var. İnamla addımladığı bu yolda isə onun ən böyük dəstəkçiləri ailəsidir. Onun ailəsi 4 nəfərdən ibarətdir. Atası Cəfərov Rafiq Çoban oğlu, 15 iyun 1972-ci ildə Tovuz rayonunda anadan olub. Hal-hazırda usta işləyir. Anası Abdullayeva Nübar Abbas qızı 18 noyabr 1984-cü ildə Ermənistan respublikasının Krosnoseliski rayonunda anadan olub, evdar xanımdır. Bacısı Abdullayeva Solmaz Rafiq qızı, 2007-ci ildə Tovuz rayonunda anadan olub, 6-cı sinif şagirdidir.

Elm inkişafın ön cəbhəsidir, mədəniyyət isə onun ictimai həyatda buraxdığı izdir. Ümid edək ki, həm elmi, həm mədəni inkişafı istiqamətdə həyata inamla atılan Elvira gələcəkdə seçilib, sayılan şəxslərdən biri olacaq. Biz də öz redaksiyamız adından Elviraya böyük həyat uğurları arzulayırıq. Müəllimlərinin və valideynlərinin fəxri olmağını diləyirik. Yolun açıq, bəxtin parlaq olsun!



# XANKİŞİYEVA HƏBİBƏ



**"Dünyanı istəyən elmə sarılsın, axirəti istəyən yenə elmə sarılsın"**

***(Məhəmməd Peyğəmbər s. ə. s)***

Bir vaxt gələcək ki, elm xəyalı qabaqlayacaq deyimi sanki yaşadığımız 21-ci əsri özündə ehtiva edirmiş. Ötən əsrlərdə nağıl kimi görünən elmi-texnoloji yenilik və kəşflər artıq əsrimizin real həyat mənzərəsinə çevrilib. Onların sayəsində həm rahat, həm də daim inkişaf modelində davam edir və yaşayırıq. Əslində dərin zəkalı insan beyninin məhsulu olan elmi yenilik və texnoloji kəşflər insan həyatının rahat və innovativ üsulda davam etməsini, sürdürməsini düzənləyir, istiqamətləndirir. Elm, təhsil zəhmət tələb etdiyi qədər nəticəsinin müsbət tərəfləri ilə həmişə seçilib və təqdir olunub. Ona görə də çalışmaq lazımdır ki, insan hər zaman elm-təhsil yolunu özünə əsas həyat devizi seçsin, əsas qayə olaraq görsün.

Elmin mənbəyi evimizdən, bağçadan və məktəbdən başlanır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir ki, bu işdə bilikli, dünyagörüşlü, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük rol oynayır. Çünki şərəfli və müqəddəs peşə daşıyıcıları olan müəllimlərin sayəsində insan elm-bilik tərəqqisinə nail olur, təhsil həyatına bağlanır. Gərək müəllimlər də öz ixtissasını dərindən bilsin və vicdanla yerinə yetirsin ki, sabah hansısa istedadlı və bacarıqlı şagird onun səhlənkarlığı səbəbindən elmdən-təhsildən uzaq düşməsin, bilgisi yetərli olsun.

"Daş-qaş əvəzinə özünə bilik yığsan daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz" deyimi də əbəs yerə deyilməyib. İnsan üçün ən böyük sərvət elm-bilik, dərin zəka və bundan düzgün istifadə etməyə əsas verən ağıldır.

Qazandığı bilikləri özündə bir sərvət kimi saxlayan və daha da irəliyə aparmağa çalışan şagirdlərimizdən biri də Həbibədir. O,təhsilin, savadın insan həyatındakı önəmini də, vacibliyini də yaxşı başa düşür. İstedadlı və bacarıqlı olması ilə seçilən Həbibə bu yazının qəhrəmanıdır.

Xankişiyeva Həbibə Qabil qızı 18 may 2008-ci ildə Bakı şəhərində anadan olub. 2014-ci ildə Zəngilan rayonu 21 saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. Məktəbə başladığı ilk günlərdən dərslərinə olan marağı onu sinifdə digər yoldaşlarından fərqləndirib. Məsuliyyəti və çalışqanlığı ilə müəllimlərinin sevgisini və hörmətini qazanan Həbibə hər zaman dərslərinə hazır olub və sinif əlaçısı olub. Sinif əlaçısı olan Həbibənin bütün fənlərə olan marağı onu dərslərində əlaçı olamağa sövq edib, lakin, ən sevdiyi fənn və bu fənni ona sevdirən müəllim isə, Azərbaycan dili fənni və onu tədris edən Sona müəllimdir. Doğma ana dilini sevən Həbibənin məqsədi dərslərini əla oxuyub gələcəkdə həkim olmaqdır. O deyir ki, vətəninə, millətinə layiqincə xidmət edib,savadlı kadrlar yetişdirmək istəyir. Ölkəmizin savadlı və vicdanlı həkimlərə, xüsusilə peşəkarların hər zaman böyük ehtiyacı var. O, da qarşısına belə bir həkimlərdən olmağı məqsəd qoyub. Boş vaxtlarını hekayə kitabları oxumaqla dəyərləndirən Həbibənin ailəsi 5 nəfərdən ibarətdir. Çünki oxumaqla həm dünyagörüşünü, həm də nitq qabiliyyətini inkişaf etdirən Həbibə mütaliənin hikmətini də anlayır.

Atası Xankişiyev Qabil Babakişi oğlu, 26 yanvar 1972-ci ildə anadan olub və hazırda özəl şirkətlərin birində çalışır.

Anası Quliyeva Afət Arif qızı, 23 fevral 1974-cü ildə anadan olub, evdar xanımdır.

Qardaşları-Xankişiyev İlkin Qabil oğlu, 10 fevral 2000-ci ildə anadan olub və hal-hazırda Azərbaycan Turizm və Menecment Universitetinin-Turizm və Qonaqpərvərlik fakültəsinin 2-ci kurs tələbəsidir. Xankişiyev Kənan Qabil oğlu 25 iyul 2001-ci ildə anadan olub və hal-hazırda Bakı Avrasiya Universitetinin -Alman dili üzrə tərcüməçilik fakültəsinin 1-ci kurs tələbəsidir. Qardaşları kimi yolunu ali təhsil ocaqlarından salmağı planlaşdıran Həbibə də yaxşı bilir ki, indi dövrün əsas tələbi savadlı və yüksək təhsilli olmaqdır. Qardaşları və valideynləri də daim onu dəstəkləyir və həyat yolunu düzgün seçməkdə ona yardımçıdırlar.

Jurnal kollektivi adından Həbibə balamıza gələcək həyat yolunda uğurlar diləyir, bütün arzularına catmağı arzu edirik. Hər zaman valideynlərinin və müəllimlərinin fəxri olsun və səsin daim ucalardan gəlsin. Yolu açıq, bəxti parlaq olsun!

# Əsədova Ruhiyyə






**"Kitab insanda görmədiyim, bilmədiyim cəhətləri mənə sübut etmək qüdrətinə malikdir"**
***(M. Qorki)***

İnsan gərək bütün ömrü boyu maariflənsin. Çünki kitab insan təəfəükkürünün yorulmayan qanadları, bilik mənbəyidir. Bütün elmlərin bünövrəsi təhsillə qoyulur. Elmin hüdudları üfüqi xatırladır: nə qədər yaxınlaşırsansa, o qədər uzağa çəkilir. Həqiqətən elm dəryası dərindir və elmi öyrəndikcə ona çatmaq əvəzinə daha da uzaq düşürsən. Yəni elm ancaq davamlı araşdırma və təhlillər aparılmasını tələb edir ki, bu da hər bir gənc, yeni nəslin öhdəsinə düşən vacib əməllərdən biridir. Çünki 21-ci əsr elm və texnologiyanın ən üst inkişaf mərhələsində yaşayırıqsa mütləq onda baş verən elmi nailiyyətlərin əldə olunmasında vasitəçi və istifadəçisi olmalıyıq. Yəni indiki dövrdə böyük rəqabətin hökm sürdüyü zamanda təhsilli yaxud təhsilsiz kimi insanlar arasında dərin fərqlərin yaranması qaçılmazdır. Çünki elmin-texnologiyanın sabahı üçün inkişaf etmək lazımdır ki, inkişaf isə keyfiyyətli təhsil və peşəkar kadrlar tərəfindən icra olunur. Bu kadr və təhsil isə öncə hər birimizin getdiyi orta məktəblərdən başlayır. Təhsillə başlanan həyat oxumaq, öyrənməklə bir ömür davam etməlidir ki, insan həyatı və yaşamı qavramaqda əziyyət çəkməsin və əslində onu dərk etsin. Elə bu qənaətdə olan jurnalımızın növbəti istedadlı və seçilən şagirdlərindən biri də Əsədova Ruhiyyədir. Onun oxuduğu təhsillə hələ ki, peşmançılıq yaratmayıb, əksinə göstərdiyi nəticələrlə məktəbin nümunəvi şagirdlərindən seçilib. Onun haqqında bu yazıda daha ətraflı tanış olmaq olar.

Əsədova Ruhiyyə Sakit qızı 2008-ci ildə Lerik rayonunda anadan olub. 2013 cü ilin tədris ilindən məktəb həyatına başlayan Ruhiyyə hazırda Qubadlı 2 saylı tam orta məktəbin 5b sinif şagirdidir. Oxuduğu 5 il müddətində Ruhiyyə ona dərs deyən müəllim və keçirilən fənnləri sevə-sevə oxuyaraq mənimsəyib. Ona görə də onun üçün müəllim sənəti müqəddəs olduğuna görə ona dərs deyən, elm-bilik öyrədən az-çox fərq qoymadan bütün müəllimlərini sevdiyini və onlara dərin rəğbət bəslədiyini bildirdi. Müəllimləri arasında fərq qoymayan Ruhiyyə ancaq fənnlər arasında fərq qoydu. Belə ki, onun ən çox sevərək öyrəndiyi fənlər Azərbaycan dili, riyaziyyat, Azərbaycan tarixi, həyat bilgisi və informatikadır. Göründüyü kimi daha çox dəqiq elmlərə və öz doğma ölkəsini dilinə və tarixinə bağlıdır. Onun bu illər ərzində bir çox təhsil uğurları olub ki, bunlar da adətən əlaçı olması və tədris ilinin sonunda əldə etdiyi yüksək göstəricilərə dair "Fəxri Fərmanlar" dır. Maraqlıdır ki, Ruhiyyə asudə zamanlarını da maraqlı keçirməyə çalışır və boş zamanlarını kitab oxumağa, maraqlı televiziya lahiyələrini izləməyə və istirahətə sərf edir. Onun üçün mütaliə maraqlıdır və mütaliə ilə o, həm dünyagörüşünü artırır, həm də səlis nitq qabiliyyətini formalaşdırır. Ailəsi də daim onu dəstəkləyir və hər bir addımında məsləhət verməklə arxa-dayaq olur. Özündən başqa ailədə 4 nəfərdirlər. Atası Sakit Əsədov 1983-cı il 20 yanvar doğumludur. Hazırda günəmuzd halal zəhməti ilə işləyərək ailəsini dolandırır, övladlarını saxlayır. Anası Əsədova Fəxriyyə 31 dekabr 1980-ci il doğumlu, peşəsi dərzilikdir. O da dərziliklə məşğul olaraq ailə başçısına yardımçı, övladlarına həm mənəvi, həm maddi dəstəkdir. Ruhiyyənin Əsədov Zamiq və Əsədov Zaur adlı iki qardaşı var ki, onlar da 7-ci və 8-ci sinif şagirdidirlər.

Kitabsız qalmaq, çörəksiz qalmaqdan çətindir deyimi kitabın, elmin dəyər və qiymətini anlatmaqda belə çox zəifidir. Ona görə də Ruhiyyə daim çalışmalıdır ki, ömür yolunu elm yolundan salsın və daim onun elmin nuru ilə ömrünü nurlandırsın. Elə bu arzu ilə də jurnalımız adından Əsədova Ruhiyyəyə uğurlar və başarılar diləyir, gələcək peşə və həyat yolunda mayak kimi ucalmağı arzulayıram.



# ABDULLAYEVA SOLMAZ



**"Fitri ağıl hər hansı bir təhsili əvəz edə bilər, amma heç bir təhsil fitri ağılı əvəz edə bilməz"**
**(Artur Şopenhauer)**

Elm, savad, bilik və təhsilin bizim həyatımızda önəmi hamımıza məlumdur. Elm insanın dünyagörüşünü artırmaqla yanaşı, həm də bizdə insani keyfiyyətlərin zənginləşməsinə şərait yaradır. Elm, savad insanı aydınlığa aparan yol, onu müdrik bir insana çevirən vasitədir. Hər ağıllı insanın istəyi savadlı, dünyagörüşlü, bilikli, ziyalı bir şəxs olmaqdır. Bu yolda isə bizə kömək edən, yolumuzu işıqlandıran vasitə elmdir. Savadlı insan həmişə həyatında özünə düzgün yön seçə, doğru qərarlar verə bilir. Elmin, savadın, biliyin mahiyyətini dərk edən və bu yolda irəliləməyə çalışan şagirdlərimizdən biri də Solmazdır. O elm yolunu seçməklə həyatını onunla nurlandıracağına qərarlıdır.

Abdullayeva Solmaz Rafiq qızı 25 avqust 2007-ci ildə Tovuz rayonu Qovlar qəsəbəsində anadan olmuşdur. 2013-cü ildə K. Ə. Mirzəyev adına Xanlıq kənd 1 saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 6b sinif şagirdi olan Solmaz oxuduğu illər ərzində əlaçı şagird olmuşdur. Solmazın ən çox maraq göstərdiyi fənlər Azərbaycan dili, ingilis dili və riyaziyyat fənləri, ən çox sevdiyi müəllimlər isə Nəcəfova Sevinc müəllim, Həziyeva Vəsmə müəllim, Tağıyeva Nigar müəllim, İsmayılova Təranə müəllim, Məmmədova Zita müəllim, Yusifova Gülcamal müəllim və Heydərova Qəribə müəllimdir. Solmazın arzusu gələcəkdə tərcüməçi olmaqdır. Bu yolda da qarşısına məqsəd qoymuşdur ki, dərslərini əla oxuyub orta məktəbi bitirsin və ali məktəblərin birinə qəbul olsun. Solmaz bir çox uğur və nailiyyətləri olan şagirddir. Belə ki, "Hədəf" kursları tərəfindən keçirilən fənlər arası imtahanlarda birinci yeri tutduğu üçün fəxri fərmanla təltif olunub, sonra K. Ə. Mirzəyev adına Xanlıq kənd 1 saylı tam orta məktəbin imtahanlarında yüksək nəticə göstərdiyi üçün məktəb rəhbərliyi tərəfindən fəxri fərman alıb, daha sonra təhsilində qazandığı müvəffəqiyyətlərinə və nümunəvi davranışlarına görə yenə də məktəb rəhbərliyi tərəfindən fəxri fərmanla təltif olunmuşdur. Solmaz boş vaxtlarında da dərsləri ilə məşğul olur, kitablar oxuyur və rəsm çəkir. Onun ailəsi 4 nəfərdən ibarətdir. Atası Cəfərov Rafiq Çoban oğlu, 15 iyun 1972-ci ildə Tovuz rayonunda anadan olub. Hal-hazırda usta işləyir. Anası Abdullayeva Nübar Abbas qızı 18 noyabr 1984-cü ildə Ermənistan respublikasının Krosnoseliski rayonunda anadan olub, evdar xanımdır. Bacısı Abdullayeva Elvira Rafiq qızı 2 iyul 2009-cu ildə Şəmkir rayonunda anadan olub,4-cü sinif şagirdidir.

Hər bir millətin tərəqqisi və başlıca meyarı elmdir. Ona görə də jurnalımızın kollektivi adından öz növbəmizdə Solmaza uğurlar arzulayır, elm-təhsil sahəsindəki müvəffəqiyyətlərinin daimi olmasını diləyirik. Həyat yolun parlaq olsun.

# QULİYEVA GÜLNAR



**Dünyada nə qədər kitab var belə**
**Çalışıb, əlləşib gətirdim ələ.**
**Oxudum, oxudum, sonra da vardım,**
**Hər gizli xəznədən bir dürr çıxardım.**
***(NİZAMİ GƏNCƏVİ)***

Həyatda insan bir çox amal uğrunda çalışır. Lakin, bir çox şeyi əldə etmək üçün öncəlik təhsildə, elmdə, bilikdə olmalıdır. Çünki, bütün amala, istəyə gedən yolda yolumuzu aydınlatan bizim savadımız, elmimiz və dünyagörüşümüz olur. Elmdə heç bir ideya ehkam deyil; hər bir adam ən məşhur alimin ən çox yayılmış ideyasına da istənilən vaxt yenidən yoxlamaq səlahiyyətinə malikdir. Yəni elmdə hər zaman aparılan tədqiqatlar, araşdırmalar onun dəyişlib yeni faktlara zənginləşdirilməsini qaçılmaz edir. Odur ki, hər kəs istənilən alimin ideyasını, kəşfini yenidən yoxlamaq səlahiyyətinə malikdir. Yəni insan öz məqsədləri uğrunda, elmi-biliyinin artırılması uğrunda maraqlı olmalı və bunun fərqində duraraq yüksək təhsilə və daim öyrənməyə önəm verməlidir.

Öz məqsədlərinə çatmaq üçün özünə yol yoldaşı olaraq biliyi, savadı, elmi seçən şagirdlərimizdən biri də Quliyeva Gülnardır. O həyatının xilasını elmdə-yüksək təhsildə görənlərdəndir.

Quliyeva Gülnar Əfsər qızı 2006-cı ildə Ağsu rayonunun Kalva kəndində anadan olub. 2012-ci ildə 99 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olaraq təhsil həyatına ilk qədəmlərin basıb. Hazırda həmin məktəbin 6-cı sinif şagirdidir. Gülnar demək olar bütün fənlərini sevir və xüsusi maraqla oxuyur. Amma, aralarında Ədəbiyyat fənnini xüsusi bir maraqla oxuyur. Ona bütün fənləri sevdirən ilk növbədə müəllimləri olmuşdur. Ən sevdiyi müəllimi isə Pəri müəllimdir. Gülnar oxuduğu müddət ərzində əlaçı olmuş və daima müəllimlərini əziyyətini dəyərləndirən şagirdlərindən olmaq üçün çalışmışdır. Gülnarın arzusu və məqsədi gələcəkdə müəllim olmaqdır. Müsahibimiz deyir ki, o da öz müəllimləri kimi savadlı və bilikli bir müəllim olmaq arzusundadır və bunun üçün də boş vaxtlarını kitab oxumaqla, mütaliə etməklə dəyərləndirir. Onun həm də, rəsm çəkmək, şeir demək kimi bacarıqları da var ki, birçox uğur və nailiyyətləri də bu sahədəndir. Gülnarın ailəsi 6 nəfərdən ibarətdir. Onun həyatda ən böyük dəstəkçiləri də ailəsidir. Gülnarın istəyi və arzusu valideynlərinin və müəllimlərinin əziyyətini yerdə qoymamaqdır.

Atası Quliyev Əfsər Sətdar oğlu, şair ruhlu bir insandır. Anası-Quliyeva Təzəgül Təşkilat qızı, evdar xanımdır. Gülnarın iki qardaşı - Quliyev Ruslan 6-cı sinif, Quliyev Aslan isə 5-ci sinif şagirdidir və Quliyeva Songül adlı bacısı isə 1-ci sinif şagirdidir.

Elmin mənəvi siması onun kimin əlində olmasından asılıdır. Biz də öz növbəmizdə Gülnar balamızın elm-təhsil yolundakı uğurlarının daha da bol olmasını, gələcək həyatında nailiyyətlərinin artmasını diləyirik. Yolun açıq, ömrün parlaq olsun!



# ZEYNALOVA ZƏHRA



**Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun, elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin.**
***(Əbülhəsən Bəhmənyar)***

Bilikli insan hərtərəfli olduğu üçün hər hansı bir çətin vəziyyətdən çox asanlıqla çıxa bilir. Belə insanlar ziyalılığın göstəricisi kimi güclü ünsiyyət bacarığına da yiyələnmiş olur. Belə ki, dili, ünsiyyəti güclü olan insan malik olduğu bilik və bacarığını daha rahat, başa düşüləcək tərzdə ifadə etmək qabiliyyətindədir. Budur ziyalılıq, budur fərqlilik. Elə yuxarıda qeyd edilən hikmətli statusdan da göründüyü kimi gərək həmsöhbət və kitab seçərkən belə diqqətli olasan ki, həm zaman, həm də öyrəniləcək bilgi itkisi ilə üzləşməyəsən. Yaxşı kitab filosoflar qədər bilgili, həmsöhbətlər isə dəyərli kitablar qədər zəngin məlumatlı olsa ancaq qazanmış olarsan. Qayəsi təhsil-elm olan jurnalımızın da əsas hədəfi istedadlı və bacarıqlı, xüsusi qabiliyyətli və əlaçı şagirdləri tanıtmaq və təbliğ etməkdir. Qoy onlar gələcəyin çarçısı və idarəedicisi kimi daim diqqət və qayğı ilə böyük addımlar atsın, ölkənin gələcəyini əmin əllərdə idarə edərək inkişaf etdirsinlər. Belə bir istəklə həyata atılan və təhsil həyatında fərqlənən itedadlı şagirdlərdən biri də Zəhra Zeynalovadır. Bu yazı onun haqqında olmaqla, oxucularına onun tərcüməyi halı və təhsil həyatı ilə tanışlıq yaradır.

Zeynalova Zəhra Mütallib qızı 18 may 2009-cu ildə Bakı şəhərində anadan olub. Dünyaya gəlişi ilə valideynlərinə sevinc hissi bəxş edən Zəhra balamız, valideynlərinin göz nuruna çevrilmişdir. 2016-cı ildə Zəngilan rayon 21 nömrəli tam orta məktəbin 1-ci sinfinə qədəm qoymaqla ailəsini sevindirib. Hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Çox çalışqan və məsuliyyətli şagird olan Zəhra, məktəbə gəldiyi ilk gündən öz müəllimlərinin sevimlisinə çevrilməyi və onların hörmətini qazanmağı bacarmışdı. Bütün fənlərə maraqla və sevgiylə yanaşan Zəhranın ən sevdiyi fənlər isə ingilis dili və riyaziyyatdır. O, yaxşı bilir ki, riyaziyyat elmlərin şahı, ingilis dili isə beynəlmiləl dil olmaqla günümüzün əsas tələb olunan dilidir. İndiki realıqda bu iki fənn dünya miqyasında belə əsas sayılır, tələb olunur. Ona görə də Zəhra gələcək təhsil həyatı üçün indidən bu fənləri və digərlərini yaxşı oxumalı və dərindən mənimsəməlidir. Bu günkü uğurlarına və gələcəkdə əldə edə biləcəyi nailiyyətlərinə görə öncədən bütün müəllimlərinə minnətdar olan Zəhra hər bir müəllimini ayrı bir sevgiylə sevsədə ən sevdiyi müəllimələri Natavan müəllim, Nəsibə müəllim və Tənzilə müəllimdir. O uğura gedən yolda özünə yol yoldaşı olaraq kitablarını və o kitabları onun üçün doğmalaşdıran, sevdirən müəllimlərini seçmişdir. Hər bir qərarında valideynləri ən böyük dəstəkçiləri və motivasiya mənbəyi olmuşdur. Ailəsi əllərindən gələni edirlər ki, Zəhra ali təhsil alsın, savadlı, bilikli bir insan kimi, vətəninə, xalqına layiqli bir övlad kimi yetişsin. Onun arzusu gələcəkdə peşəkar jurnalist olmaqdır. Bu yazı ilə onun haqqında yazdığımız sətirlər sabah Zəhranın bir peşəkar jurnalist yetişməsinə əsas verməklə, həm də həmkar kimi formalaşmasına səbəb ola bilər. Buna görə də Zəhra hər zaman sinif əlaçısı olmaqla dərslərindən yayınmaz. Boş vaxtlarını kitab oxumaq və musiqi dinləməklə dəyərləndirən Zəhranın ailəsi 5 nəfərdən ibarətdir. Kitab mütaliə mədəniyyətini gəlişdirir, musiqi mənəvi dünyasını zənginləşdirir.

Atası Zeynalov Mütallib Elxan oğlu 20 sentyabr 1983-cü ildə Bərdə rayonunda anadan olub və hazırda elektirik kimi çalışır.

Anası Zeynalova Nəzakət Əbdüləli qızı 25 iyun 1990-cı ildə Bakı şəhərində anadan olub, evdar xanımdır. Qardaşlarından Zeynalov Akif Mütallib oğlu 3-cü sinif şagirdidir, Zeynalov Hüseyn Mütallib oğlu isə hazırlığa gedir.

Biz də öz jurnalımız adından Zəhraya gələcək həyat yolunda uğurlar arzu edir və qazandığı nailiyyətlərlə valideynlərinin və müəllimlərinin fəxri olmağını diləyirik. Yolun

# ƏLİ RƏSULOV



**"Bütün ölkələr üçün vahid universitet modeli ola bilməz. Hər bir universitet öz ölkəsinin ictimai həyatının üzvi hissəsi kimi formalaşmalıdır"**

***(Rabindranat Taqor)***

Ata babalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan bu gözəl yurdumuzu, onun üzərində atalarımızın qurduqları sivilizasiya və mədəniyyət xəzinələrini, dilimizi, mənəviyyatımızı qoruya bilmək, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün onu müdafiə etməyə hər an hazır olmalıyıq. Elmə, savada öz həyatımızda hər zaman geniş yer verməliyik. Bütün elmlərin təməli təhsillə qoyulur. Elm təşkilatlanmış bilikdir. Həmçinin biliyi, savadı olan insanın gözəl əxlaqı da olur. 21-ci əsr də bunu tələb edir ki, zamanın nəbzin tutub onun tələbinə uyğun inkişaf edəsən. Bu yazının qəhrəmanı da Əli baladır.

Əli Rəsulov Arif oğlu 2010-cu il may ayının 2- si ölkəmizin səfalı guşələrindən biri olan Sabirabad rayonu Yaxa Dəllək kəndində anadan olub. Əli ilk dəfə 2016-cı ildə Əlif Xanlarov adında Yaxa Dəllək kənd ümumi orta məktəbində təhsil almağa başlayıb. Müəllimlərin sevimlisi olan Əli dərslərində də, olduqca çalışqan və məsuliyyətlidir. Hazırda 3-cü sinif şagirdidir. Ana dili, riyaziyyat və həyat bilgisi dərslərini oxumağı daha çox sevdiyini söyləyən Əli müəllimlərinin adını çəkməyi də yadından çıxarmadı. Aygün müəllim və Rəşidə müəllimi daha çox sevdiyini və onların verdiyi tapşırıqları vaxtında yerinə yetirdiyini bildirdi. Əli iştirak etdiyi imtahanlardan yaxşı qiymət almağı bacarır və zaman keçdikcə daha yaxşı qiymətlər alacağına ümid edir. Yaxşı oxumaq və dərslərindən yüksək qiymət almaq onun 3 illik dərs ilində ən böyük uğur və nailiyyətidir. Onun gələcəkdə yiyələnmək istədiyi sənət isə müəllimlikdir. O da müəllimləri kimi şagirdlərə dərs demək və maarifləndirmək istəyir. Əli asudə vaxtlarını dərs oxumağa,yazı yazmağa, kitab oxumağa sərf edir. Yazı onun zövq alaraq məşğul olduğu ən sevimli vərdişlərindən biridir.

Rəsulovlar ailəsi 4 nəfərdən ibarətdir. Atasi Arif bəy sürücüdür. Anası isə bağçada aşbaz işləyərək dadlı yeməkləri ilə fidan balaları sağlam qidalandırır. Əlinin bir bacısı da var. O,ailəsini çox sevdiyini deyərək onların başını hər zaman uca etmək istədiyini də əlavə etdi.

Biz də, bu ağıllı oğlana gələcək həyatında arzularının həyata keçməsini diləyirik. Uğuru bol,yolu açıq olsun.



# ABBASOV AZAD



**"Şagird bir qab deyil ki, onu doldurasan, o bir məşəldir, onu alovlandırmaq lazımdır". Konstantin Uşinskinin bu sözlərini əbəs yerə xatırlamadıq. Ona görə dedik ki, qarşıda valideynlərinin zəhməti, müəllimlərini dəyəri biçilməyən əməyi və öz çalışqanlığı ilə alovlanan bir məşəldən bəhs edəcəyik.**

**Xoşbəxt o adamdır ki, özgənin günahlarını saymağa vaxt itirməyib, öz şəxsi qüsurlarını düzəltməklə məşğuldur.**

***Əbül Fərəc***

Savadsız, biliksiz, elmsiz insan da qüsurlu insan sayılır. İnsanda qüsur deyəndə təkcə əqli cəhətdən yox, həm də elmi cəhətdən başa düşülür. Savadsız insan meyvəsiz ağaca bənzər. Elm insanı həyatda hər zaman ön pillələrə çəkən amillərdən biridir. Bütün bunları yetərincə dərk edən, və savadlı bir gənc kimi yetişməyi qarşısına məqsəq qoyan şagirdlərimizdən biri də Abbasov Azaddır. Jurnalımızın dəsti-xəttinə uyğun olaraq Azad çox mütaliləli bir şagird olaraq bu yazımızın baş qəhrəmanı kimi təqdim olunur.

Belə ki, Abbasov Azad Polad oğlu 28 noyabr 2001-ci ildə Bərdə rayonunda anadan olmuşdur. 2008-ci ildə Ağdam rayonu 76 nömrəli tam orta məktəbin 1-ci sinfinə qədəm qoyan Azad hazırda 11-ci sinif şagirdidir. Necə deyərlər, "yaxşı olan hər şey" öz müəllimini razı salmaqdan başlayır. Elə Azad da belə edib, məktəbə gəldiyi ilk gündən çalışqanlığı və inadkarlığı ilə müəllimlərinin sevimlisinə çevrilib. Oxuduğu illər boyu sinif əlaçısı olan Azad həm savadı, zəkası, həm də tərbiyyəsi, məsuliyyəti ilə müəllimlərinin və sinif yoldaşlarının rəğbətini qazanıb. Azad gələcəkdə Maliyyə işi və Turizim sahəsi üzrə irəliləmək istəyir. Hər birimiz bu keşməkeşli yolda ona müvəffəqiyyətlər arzu edir və gələcəkdə vətəninə, millətinə xeyirli övlad olmağı arzu edirik. Və xalqına layiqli xidmət göstərməyi, onların keşiyində şərəflə dayanmağı diləyirik. Azadın ən çox sevdiyi fənlər Azərbaycan dili, ingilis dili, coğrafiya və riyaziyyatdır. Azad vurğulayır ki, ona bu elm, bilik, savad yolunda dəstək olan bütün müəllimlərini sevir və bir ömür üzərində əziyyəti olan müəllimlərinə minnətdar olacağını deyir. Uğur və nailiyyətləri adlı sorğumuza məktəbin əsas tədbirlərində aktiv iştirak etməsini qeyd edib. Boş vaxtlarında idmanla məşğul olan və kitab oxumağı sevən Azadın ailəsi 4 nəfərdən ibarətdir. O, ailəsinin də istəyi üzərə ali məktəbə qəbul olmağı qarşısına məqsəd qoyub. Bu yolda onun ən böyük dəstəkçiləri elə ailəsi və müəllimləridir. Onlar Azadın azad və firəvan bir cəmiyyətdə yaşamasını, arzularına çatmasını istəyirlər.

Atası Abbasov Polad şəxsi bizneslə məşğuldur. Anası Abbasova Ema evdar xanımdır. Bacısı Abbaslı Lalə Polad qızı, hazırda Ağdam rayon 76 nömrəli tam orta məktəbinin 7-ci sinif şagirdidir.

Biz də öz jurnalımız adından Azada həyat yolunda uğurlar arzu edirik. Daima ailənin baş ucalığı olmasını, səsinin hər zaman yüksəklərdən gəlməsini diləyirik. Ömür yolun açıq olsun... !

# ƏLİYEVA SƏMAYƏ




**Elm bir müharibə meydanını xatırladır. Yaradıcı alimlər ön cəbhədə olur və əsl döyüş də burada gedir. Arxa cəbhədə olanların vəzifəsi öndəkiləri silah-sursat və azuqə ilə təmin etmək, tutulmuş ərazilərdə səliqə səhman yaratmaqdır.**

***ƏLİ TURXAN***

Elm, savad qazanmaq hər kəsin istədiyi bir şeydir. Amma buna hər kəs nail ola bilmir. Çünki biliyə, savad, təhsilə gedən yol çox keşməkeşli və çox zəhmət tələb edən bir yoldur. Necə deyərlər, əziyyətini çəkməsən bəhrəsini görməzsən. Taberaninin belə bir deyimi var ki, " Qız uşağını gözəlcə tərbiyə edib, Allahu-Təalanın verdiyi nemətlərlə bolluq içində yedirsə, geydirsə, o qız uşağı onun üçün bir bərəkət olar, cəhənnəmdən qurtulub asanca cənnətə girməsinə vəsilə olar". Anasının, atasının və bir bacısının fəxri, sevinc mənbəyi olan Səmayə 30 iyun 2002-ci ildə Bakı şəhərində dünyaya göz açmışdır. Dünyaya gəlişi ilə ailəsinə sevinc bəxş edən Səmayə 2008-ci ildə Ağdam rayon 76 nömrəli tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Hal -hazırda həmin məktəbin 11-ci sinfində təhsil alır. Məktəbə başladığı ilk gündən müəllim və şagird kollektivinin rəğbət və sevgisini qazanan Səmayənin dərslərə olan marağı onu sinif əlaçısı və qabaqcıl bir şagird olmağa sövq etmişdir. Bütün fənlərini xüsusi bir maraqla oxuyan Səmayənin xüsusilə Azərbaycan dili və Ədəbiyyatı, ingilis dilinə və fizika fənlərinə marağı daha çoxdu, bu fənləri bir ayrı sevir. Gələcəkdə hüquqşünas olmağı qarşısına məqsəd qoyan Səmayəyə bu yolda dəstək verənlərdən biridə onun müəllimləridir. Bütün müəllimlərini sevən qızımızın ən sevimli müəllimləri isə Səlimova Lalə müəllim, Qurbanova Naibə müəllim və Tağıyeva Rafet müəllimdir. Boş vaxtlarını ancaq kitabxanada keçirən müsahibimiz qeyd edir ki, kitab oxumaq insan ruhunun qidasıdır. Onun məqsədi orta məktəbini əla qiymətlərlə bitirib ali məktəbə qəbul olmaqdır. Əsas arzusu isə Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olmaqdır. Bunun üçündə III qrup üzrə gecə-gündüz oxuyaraq hazırlaşır. Həm ailəsinin, həm də müəllimlərinin əziyyətini yerdə qoymamaq üçün var gücü ilə çalışan Səmayənin ailəsi 4 nəfərdən ibarətdir. Onun ən böyük dəstəkçiləri də ailəsidir.

Atası Əliyev Gülağa Məhəmməd oğlu 10 oktyabr 1976-cı ildə anadan olub, Yasamal rayonu " Azərsu ASC "-də çilingər işləyir.

Anası Əliyeva Tamella 2 noyabr 1976 -cı ildə anadan olub. Evdar xanımdır.

Bacısı Əliyeva Vəfa Gülağa qızı 1998-ci il təvəllüdlüdür.

Biz də öz jurnalımız adından Səmayəyə gələcək həyatında uğurlar arzu edir və səsinin daim yüksəklərdən gəlməsini diləyirik. Ailənin və müəllimlərinin fəxri olman arzusu ilə yolun açıq olsun. !



# PAŞAYEVA LALƏ




**İnsana arxadır onun kamalı,**
**Ağıldır hər kəsin dövləti, malı.**

***(NİZAMİ GƏNCƏVİ)***

Belə bir deyim var ki, "Abdaldan paşa olmaz, taxtadan -maşa". İnsan elmə savada yiyələnə bilmədiyi vaxt sanki, həyatda hər şeyi yarım qoyur. Bilikli biri ilə biliksiz, savadsız birinin düşüncələri arasında, qərarları arasında çox fərq olur. Elm insanın cövhəridir. Bilikli olmaq azdır, gərək bu bilikdən istifadə etməyi bacarasan. Buna isə bacarıq və dünygörüşü şərait yaradır. Öz bacarığı, savadı, biliyi ilə seçilən və bu yolda daha da irəliləməyə çalışan şagirdlərimizdən biri də Paşayeva Lalədir. Lalə yaşının az olmasına baxmayaraq, gələcək həyat yolunu öz savadı ilə işıqlandırmağa çalışır və bu yolda özünə kitablarını yoldaş seçib. O, həm də yaxşı bir idmançıdır. Onun tərcüməyi halı ilə tanışlıq bu yazıda mümkündür ki, oxuyanlar bir məktəbli qızın idman sahəsindəki uğurlarına heyran qalmaya bilməz. Ancaq idman da gərək təhsillə birləşsin ki, ikisi bir arada insanı daha güclü edir. Biri əzələsini, digəri beynini. Elə Lalə də bu qənaətdədir.

Paşayeva Lalə Rahib qızı 30 iyun 2005-ci ildə Bakı şəhərində anadan olub. 2011-cu ilin tədris ilindən etibarən Ağdam rayon 88 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Hal-hazırda həmin məktəbin 8-ci sinif şagirdidir. Ötən səkkiz ildə Lalə sinifdə çalışqan və zəkalı olması, ona tədris olunan bütün fənlərini sevərək öyrənməsi ilə seçilib. Müəllimlərinin sevimli və məsuliyyətli şagirdlərindən olan Lalənin ən sevimli fənni Azərbaycan dili, ən sevdiyi müəllimi isə Almaz müəllimdir. Lalənin arzusu dərslərini yaxşı oxuyub ali məktəbə daxil olmaq və idman müəllimi olmaqdır. Onun idman sahəsinə xüsusi marağı və əldə etdiyi uğur və nəaliyyətləri var. Aktiv məşğul olmaqla O bu sahədə qazana biləcək uğurlarını artırmaq və peşəkarlaşmaq istəyir. Belə ki, idmanın Karate növü üzrə Lalənin iştirak etdiyi yarışlardan 10 medalı, 1 kuboku və 1 kəməri var. Boş vaxtlarını da idman etməklə dəyərləndirən Lalənin ailəsi 4 nəfərdən ibarətdir. Atası Paşayev Rahib Böyükkişi oğlu, sərbəst işlə məşğuldur. Anası Qurbanova Esmira Eloğlu qızı, evdar xanımdır. 2008 -ci il təvəllüdlü Paşazadə Ruslan Rahib oğlu isə onun qardaşıdır. Ailəsinin də ən böyük arzusu Lalənin idman və təhsil həyatındakı uğurlarının sayının artması və gələcəkdə sevdiyi, seçdiyi sahədə peşəkar mütəxəssis kimi yetişməsidir.

Bizdə öz jurnalımız adından Laləyə bolluca uğur və nailiyyətlər arzulayırıq. Hər zaman ailənin fəxri olmasını diləyirik. Səsi hər daim yüksəklərdən gəlsin. Üç rəngli bayrağımızı daima ucalara qaldırmağın diləyi ilə ömür yolun açıq, uğurların daimi olsun!

# NƏCƏFLİ NƏZRİN



**"Elm yolu bumeranqı xatırladır, nə qədər uzağa getsə də, yenə ilkin əsaslara qayıdırsan"**

**(Tur Xander)**

Elmə, biliyə yiyələnmək və onun tədris etmək tarix boyu şərəfli iş hesab olunub. Əbəs yerə dinimiz İslamda da elmə yiyələnmək allaha ibadət qədər əhəmiyyətli hesab olunmayıb. Bu haqda Məhəmməd Peyğəmbərin, (s. a. s ), onun səhabələrinin bir çox hikmətli sözləri, hədisləri vardır.

Belə ki, Hz. Əli " Mənə bir hərf öyrədənin köləsi olaram" -demişdi. Elm öyrənmək nə qədər vacib və əhəmiyyətli bir iş hesab olunursa da, elm öyrətmək ondan da şərəfli və gözəl iş hesab olunur. Bu şərəfli və çətin peşə sahibləri də müəllimlərdir. Onların sayəsində bizlər elm - təhsil həyatından agah olub, izi ilə gedirik. Elmsiz -biliksiz indiki zamanda yaşamaq çətin olduğu üçün daim oxumaq və öyrənmək həyat amalına çevrilməlidir şagirdlərin. Elm öyrənməyin vacibliyini bilən və bunun üçün də hər daim çalışan şagirdlərimizdən də biri Nəcəfli Nəzrindir. Jurnalın bu yazısında onun haqqında bəhs edəcəyik.

Nəcəfli Nəzrin Mehdi qızı 4 noyabr 2009-cu ildə Bakı şəhər Səbail rayonunda anadan olub. 2016-cı ildə Zəngilan rayon 10 nömrəli tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. O, məktəbə gəldiyi elə ilk gündən öz müəllimlərinin sevimlisinə çevrilməyi və onların hörmətini qazanmağı bacarmışdı. Az yaşlı olmağına baxmayaraq olduqca məsuliyyətli biridir Nəzrin. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənlər isə ingilis dili və informatikadır. Nəzrin ona dərs deyən bütün müəllimlərini çox sevdiyini deyir, onlara böyük hörmət bəslədiyini vurğulayır. Bu sırada İlhamə müəllimənı və Nəzirə müəllimənin adını xüsusi olaraq qeyd edir ki, sevdiyi fənlərin müəllimləri bir başqa olur. Boş vaxtlarını nağıl kitabları oxumaqla dəyərləndirən Nəzrinin intonasiyalı şer demək qabiliyyəti də var. Onu hər zaman sevərək dəstək verən ailəsi 4 nəfərdən ibarətdir.

Atası Nəcəfov Mehdi Səlim oğlu, 5 may 1985-ci ildə Ermənistan respublikasının Qafan rayonunda anadan olub.

Anası Bayramova Mahirə Cəlil qızı, 1979-cu il Şərur rayonunun Axura kəndində anadan olub və evdar xanımdır. Bacısı isə 4-cü sinifdə oxuyur.

Onun ən böyük arzularından biri, məktəbi müvəffəqiyyətlə bitirib ali məktəbə daxil olmaqdır. Nəzrin gələcəkdə polis olmaq istəyir. Vətənini, xalqını, millətini mərdcəsinə qorumağı qarşısına məqsəd qoyan Nəzrin balamıza biz də öz kollektivimiz adından uğurlar arzulayır, hər zaman müəllimlərinin və valideynlərinin fəxri olmasını diləyirik. Yolun açıq, arzuların çin olsun!



# CƏFƏROVA AFƏT



**Elm yarandıqdan sonra hər şey zaman-zaman onun qiyafətinə bürünüb səliqə-sahman tapdı və günlərin birində o özünə də öz donluğundan paltar biçmək fikrinə düşdü : Elm haqqında Elm yarandı.**

***Çin atalar sözü***

Elm zamanla qazanılan, kitabların, müəllimlərin, ətrafın vasitəsilə əldə edilən ucalıqdır. Əldə olunan bilik doğru istifadə olunarsa, hər zaman bizim xeyrimizə olar. Ümumiyyətlə insan demək olar ki, hər şeyi qazana bilər əldə edə bilər lakin, ən önəmlisi onu doğru-düzgün istifadə etməkdir. Elmi kiçik görməmək, onu zamanla, səbrlə əldə etmək lazımdır. Hədəfi, məqsədi bəlli olan bir elm, -sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir. Elm isə sadəcə arzulamaqla yaranmır, istəməklə mənimsənilmir. Gərək elm yolunu dərk edərək seçib özünə həyat qayəsi olaraq görəsən. Elm uzun araşdırmaların, aparılan elmi tədqiqatların yekun nəticəsi olaraq gələnən obyektiv və real bilgi toplumdur. Gərək təhsil xətti ilə elm dünyasına yaxın olmağa çalışan hər kəs o xəzinəni tapması ilə qürur duysun və davamlı olaraq onu cəmiyyətə, gənclərə təbliğ etsin.

Bu xəzinəni tapmaq, əbədi bərəkət qaynağını əldə etməyi özünə məqsəd bilən və bunun üçün çalışanlardan biri də Cəfərova Afətdir. Növbəti yazıda onun haqqında bəhs etməklə jurnal vasitəsilə məktəblərimizin növbəti bacarıqlı və istedadlı şagirdlərindən birini oxuculara tanıdırıq.

Cəfərova Afət Gülməmməd qızı 22 noyabr 2004-cü ildə Bakı şəhərində anadan olmuşdur. Dünyaya gəldiyi gündən ailəsinə sevgi bəxş edən Afət hamının sevimlisinə çevrilmişdir. 2010-2011-ci ildə Zəngilan rayon 21 nömrəli tam orta məktəbin 1-ci sinfinə qədəm qoyan Afət hal-hazırda həmin məktəbin 9-cu sinif şagirdidir. Afət müəllimlərinin ən sevimli və məsuliyyətli şagirdlərindən biridir. Buna ötən 9 il müddətində öz zəhmət və çalışqanlığı ilə nail olub. Sinfinin ən fəal şagirdlərindən olan Afət çalışqanlığı ilə bir çox sinif yoldaşlarından seçilir. Afət gələcəkdə müəllim olmağı arzulayır ki, bu şərəfli peşəyə olan marağı öz sevimli müəllimlərindən yaranıb. O deyir ki, bütün müəllimlərini sevir lakin, ən sevimli müəllimləri isə Nəsibə müəllim və Tənzilə müəllim, ən sevdiyi fənlər isə riyaziyyat və ingilis dilidir. Elmin, fənnin ayrı-seçkiliyi olmasa da gərək riyaziyyatı və xarici dil olaraq ingilsi dilini indiki zamanda əla biləsən. Çünki hər iki fənnə güclü tələb var. Arzuladığı şərəfli peşəni ona sevdirən, məsuliyyəti və biliyi ilə seçilən müəllimlərinə öz təşəkkürünü bildirir. Bir şagird olaraq əldə etdiyi dərs uğurlarına görə isə öz müəllimlərinə borclu olduğunu deyir. Boş vaxtlarını bədii əsərlər oxumaqla dəyərləndirən Afətin ailəsi 5 nəfərdən ibarətdir. Mütaliə onun üçün bir həyat, yaşam deməkdir. Əslində bütün tələbə və şagirdlər hər zaman mütaliə etməli və öyrənməlidir ki, zamanında gec olmadan köməyinə çatsın.

Afətin atası Cəfərov Gülməmməd Salman oğlu, sürücüdür. Ailəni O, dolandırır, uşaqların təhsili ilə yaxından maraqlanır.

Anası Cəfərova Şölə Urfulla qızı, evdar xanımdır. O da övladlarının gələcəyi ilə yaşayır və təhsili ilə indidən maraqlanır.

Cəfərov Salman Gülməmməd oğlu adından bir qardaşı, Cəfərova Aysun Gülməmməd qızı adında bir bacısı var. Afət hər zaman çalışır ki, ailəsinin başını uca etsin. Valideynləri də çalışır ki, əllərindən gələni ondan əsirgəməsinlər. Biz də öz jurnalımız adından Afətə həyatda tutduğu yolda müvəffəqiyyətlər, bol-bol nəaliyyətlər arzu edirik. Yolun daima açıq, uğurların bol olsun!

# İSMİYEV RÖYAL






**"Kitablar bizi ötən əsrlərin mənəvi həyatının varisi edir"**

***(N. B. Vəzirov)***

Vətəni qorumaq dövlət və milləti qorumaq, vətəni sevmək də dövlət və milləti sevməkdir. Vətənə bağlılıq milli-mənəvi dəyərlərə, ailəyə, bayrağa, dilə, tarixə, adət-ənənəyə, dinə, sənətə, milli birlik və bərabərliyə bağlılıqdır. Vətəni sevmək sadəcə torpağı sevmək deyil, vətənin daşını, havasını, suyunu sevmək deməkdir. Əks təqdirdə bu sevgi kamil sayılmır. Bizim ölkəmizin də məhz belə mərd, cəsur, savadlı və zəkalı gənclərə hər zaman ehtiyacı var ki, ölkəni indi savadla, biliklə tanıtmaq, məşhurlaşdırmaq lazımdır. Belə bir istəkdə olan şagirdlərdən biri də elə məhz Röyaldır.

Müsahibimiz İsmiyev Röyal Vamik oğlu 2007-ci il 28 yanvar Sabirabad rayonu Kürkəndi kəndində anadan olub. Onun da gələcəyin mərd, qoçaq oğlanlarından biri olacağına şübhəmiz yoxdur. 2013-cü ildə məktəbə yollanan Röyal hal - hazırda Kürkəndi kənd ümumi orta məktəbinin 6-ci sinifində təhsil alır. Dərslərinə qarşı məsuliyyətli olan, Röyalın ən sevdiyi dərs Azərbaycan dili və fiziki tərbiyədir. Röyal zəhmətkeş müəllimlərinin adını çəkməyi də unutmadı. O, Kifayət müəllim, İlqar və Teymur müəllimlərinin adını xüsusi ilə vurğuladı. Röyal istedadlı bir şagirddir. Dərslərinə aktiv və məsuliyyətlə yanaşan Röyal gələcəkdə bunun onun üçün ən vacib tələblərdən biri olacağına əmindir. O, gələcəkdə polis olmaq arzusundadır. Həmçinin onun artıq bir sıra nailiyyətləri də var. Daha əvvəl o, juboksinq citsu üzrə 2 -ci və 3 -cü yerlərlə təltif olunub. O, əmindir ki, zaman keçdikcə daha böyük uğur və nailiyyətlərə imza atacaq. Boş zamanlarında isə Röyal dostları ilə futbol oynayır və şəkil çəkir.

Bu mehriban ailənin 4 üzvü var. Atası Vamik İsmiyev 1981- ci il 29 iyunda anadan olub və kombayn sürücüsüdür. Anası Sadıqova Xəyalə isə,1983 - cü il 1 iyunda anadan olub evdar xanımdır. Onlar Röyalın gələcəkdə arzularına çatmağını diləyir və ona böyük ümidlə inanırlar. Onun Firanə adında gözəl bir bacısı da var.

Redaksiyamız adından Röyala gələcəkdə bütün arzu, istəklərini həyata keçirməsini arzulayır və daim müəllim və valideynlərini uğurları ilə sevindirməyi diləyirik.



# Mehdiyeva Fidan



**"Elmlər insan ruhunun gözünü təmizləyir və yenidən açır. Ruhun gözü min dənə adi gözdən önəmlidir, çünki ancaq onun köməyi ilə həqiqəti görmək mümkündür"**

***PLATON***

Öyrənmək gözəlliyin sorağında gəzmək kimidir. Bu gözəlliyi kəşf edə bilmək üçünsə daşlı-kəsəkli yollarda addımlamalı, çox çətinliyə sinə gərməlisən. Lakin, bunu bezmədən yorulmadan etməlisən. Elm sirli bir aləmdir. Elm adamının yolu işığa, aydınlığa gedən yoldur. Həqiqi elmi yolla yüksələnlərin hamısı məşəqqətlərə, əzablara dözməli olub. Zənnimcə elmdə ən başlıca şüar " irəliyə get" olmalıdır. İnsanlar həmişə yaxşılardan nümunə götürür, daha qiymətli olanlara can atır. Əslində bu belə də olmalıdır. İnsanın bildiyi və öyrəndiyi məlumatlar, həyat dərsi bilmədiyi və öyrənmədiyi məlumatlar, bilgilər müqabilində heç dərəcəsindədir. Hər bir millətin, dövlətin tərəqqisi və fəaliyyətinin başlıca inkişafı elm və əxlaqdan asılıdır. Elmin qədər əxlaqın olmalı, yaxud əxlaqlı olduğun qədər elmin olmalıdır. Çünki insan təkcə elmin deyil, həm də mənəvi məsələlərə diqqət yetirməli və insanlığın dəyərini uca tutmalıdır.

Özü üçün yaxşı olanı seçib, gələcəyə doğru əmin addımlarla irəliləyən şagirdlərimizdən biri də, Mehdiyeva Fidandır. Mütaliəsevər və əlaçı şagirdlərdən biri olan Fidan haqqında bu yazıda bəhs ediləcək.

Mehdiyeva Fidan Valeh qızı 5 aprel 2007-ci ildə Bakı şəhərində dünyaya göz açıb. Fidan 2013-cü ildə Zəngilan rayonu 21 saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur. Məktəbə başladığı ilk günlərdən dərslərə böyük həvəslə yanaşan Fidan elə ilk günlərdən də müəllimlərinin sevimli şagirdi olmağı bacarmışdı. Hazırda həmin məktəbin 6-cı sinif şagirdidir. Məsuliyyətli və çox çalışqan şagird olan Fidan sinfin ən fəal şagirdlərindəndir. Onun dərslərinə və müəllimlərinə olan sevgisi sonsuzdur. Lakin, riyaziyyat və Azərbaycan dili fənlərini və xüsusilə də Nəsibə müəlliməni və Səbinə müəlliməni ayrı bir sevgi ilə sevir. Fidanın arzusu gələcəkdə həkimlik peşəsi üzrə irəliləmək və öz peşəsini layiqincə yerinə yetirməkdir. Bu yolda valideynləri onun tərəfkeşi, arxa-dayağı və ən böyük dəstəkçiləridir. Boş vaxtlarında kitab oxuyan Fidan qeyd edir ki, o, insan beyninin istirahətini məhz kitab oxumağda görür. Onun istəyi həm də gələcəkdə gimnastika və rəqs üzrə irəliləməkdir. İndidən bunun üçün çalışan Fidanın ailəsi 4 nəfərdən ibarətdir. Uğur və nailiyyətlər sorğusuna da məhz Fidan Mehdiyeva idmanın gimnastika və rəqs sahəsində əldə etdiyi uğurlarını qeyd edib. Bir çox istedadlı tərəfləri ilə seçilən Fidanın ailəsi də onun uğurlarını görmək və xoş sədasın eşitmək istəyir.

Atası Mehdiyev Valeh Mehdi oğlu, 1977-ci ildə anadan olub və usta işləyir.

Anası Cümşüdova Sima Kamran qızı 1982-ci ildə anadan olub,evdar xanımdır.

Qardaşı Mehdiyev Ravil Mehdi oğlu 1 Mart 2010-cu ildə Bakı şəhərində anadan olub və hazırda Zəngilan rayonu 21 saylı tam orta məktəbinin 3-cü sinif şagirdidir.

Biz də jurnalımızın heyyəti adından Fidan balamıza gələcək həyatında uğurlar arzu edir, sevərək seçdiyi sahədə seçilənlərdən olmasını diləyirik. Səsin daima yüksəklərdən gəlsin, ömür yolun parlaq olsun.

# Fidan Abbaslı





**“Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnirlər”.**
***(Frensis Bekon)***

Mərhum prezidentimiz Heydər Əliyev elmin vacibliyi haqqında danışarkən: ”gənclər xalqımızın milli, millimənəvi dəyərləri əsasında tərbiyələnməlidir” fikrini irəli sürürdü. O, qeyd edirdi ki, gənclər arasında aparılan iş bu istiqamətdə olmalıdır. “Bizim elmimiz inkişaf etməlidir. Elmimizi gənclər, siz inkişaf etdirəcəksiniz. İndiki görkəmli alimlər etdiklərini ediblər, amma elmimizin gələcəyi gənclərin əlindədir”. Elə jurnalımızın da əsas qayəsi təhsilə köklənmiş, təhsilə önəm verən gəncliyi, yeni nəsli tanıtmaq və tanımaqdır. Çünki yüksək təhsilli insanlarla gələcəyə addımlamaq, inamla sabaha baxmaq və irəliyə getmək mümkündür. Odur ki, bunu vaxtında şagirdlərə, yeniyetmə və gənclərə anlatmaq və maarifləndirmək lazımdır.

Jurnalın seçilən qəhrəmanlarından biri də Fidan Abbaslıdır. O, Heydər Əliyevin bu sözlərini qarşısına məqsəd qoyan saysız-hesabsız şagirdlərdən biridir. Abbaslı Fidan Nazim qızı 2004-cü ildə iyun ayının 14-də Fizuli rayonunda anadan olub. O,2010-cu il sentyabr ayının 15-də Ağdam rayon 88 saylı tam orta məktəbin 1-ci sinifinə getmiş və qısa zaman ərzində müəllimlərinin və yoldaşlarının sevimlisinə çevrilmişdir. Hazırda Fidan həmin məktəbin 8-ci sinifində əla qiymətlərlə təhsilini davam etdirir. Dərslərini əla qiymətlərlə oxuduğuna görə fəxri fərmanlarla təltif olunan Fidan həmçinin rəsm sahəsində də çox istedadlıdır. O,çəkdiyi rəsmlərə görə diplom və fəxri fərmanla mükafatlandırılıb. Belə ki, 2016-2017-ci ilin tədrsi ilində Dövlət Müstəqilliyi gününə həsr olunmuş rəsm müsabiqəsinin qalibi olduğu üçün ”Fəxri Fərman”, 2017-ci ildə ” 1 iyun-Uşaqların Beynəlxalq Müdafiəsi gününə həsr olunmuş ”Mənim Düşüncəm-2017” adlı uşaq müsabiqəsinin yekun sərgisində iştirakına görə ” Diplomla təltif olunub.

Fidanın ən sevdiyi fənlər biologiya, kimya və fizika, ən sevdiyi müəllimi isə Gülnarə müəllim,Aybəniz müəllim və Şəlalə müəllimdir. Fidan boş vaxtlarını da rəsm çəkmək və kitab oxumaqla dəyərləndirir.

Fidanın ailəsi 4 nəfərdən ibarətdir. Atası Abbasov Nazim, anası Qurbanlı Nuranə və qardaşı Eltac. Qardaşı Abbasov Eltac 20 yaşındadır və neft-qaz mühəndisliyi üzrə ali təhsil alır. O da oxuyub ali təhsil alması ilə bacısı Fidana nümunə və layiqli örnəkdir. Ləman bilmədiklərini qardaşından öyrənir və ondan özü üçün müəyyən bilgilər əxz edir. Hər ikisi öz təhsilində seçilərək ölkəsinə, xalqına faydalı şəxs olmaq və ailəsinə, valdieynlərinə, müəllimlərinə layiqli şəxsiyyət, yetirmə olmaq istəyirlər. Elə bu əzmlə də sabaha inamla baxıb gecə-gündüz çalışır, oxuyur və öyrənirlər.

Fidanın arzusu təhsilini uğurla başa vurub, savadlı, bilikli, bacarıqlı həkim olmaqdır. Biz də redaksiyamız adından məsuliyyətli və çalışqan şagird olan Fidana gələcək həyatında arzularını həyata keçirmək üçün bol-bol uğur və parlaq gələcək arzu edirik.









# FIRANƏ İSMİYEVA





**”Son 90 gün ərzində kitab oxumamaqdan daha pisi kitab oxumadığına görə narahat olmamaqdır”**
***(Cim Ron)***

Kitab bilik mənbəyi, qiymətli əvəz olunmaz bir xəzinədir. Yer üzündə minlərlə kitab mövcuddur. Hansı ki, bu kitablar vasitəsilə bir çox insanlar savad, bilik,elm əldə edirlər. Dünya yarandığı ilk gündən etibarən bəşəriyyətin bütün həyatı məhz elə bu kitablarda öz əksini tapmışdır. Daha çox kitab oxumaq elmin sirlərinə dərindən yiyələnmək və elmin faydalarından daha çox istifadə etmək deməkdir.

Jurnalın bu yazısında Firanə İsmiyeva Vamik qızı 2007 - ci il yanvarın 1 - i Sabirabad rayonu Kürkəndi kəndində anadan olub. Firanə ilk dəfə 2014- cü ildə elə bu rayonda Kürkəndi kənd ümumi tam orta məktəbinə yollanıb. Hal-hazırda 5 - ci sinifdə oxuyan bu gözəl qız dərslərində hər zaman fəallığı ilə seçilir. O deyir ki, ən sevdiyi dərs Azərbaycan dili və ingilis dilidir. Dərslərinə həmişə önəm verən Firanə ən çox istədiyi müəllimlərin Teymur müəllim və Xatirə müəllim olduğunu vurğuladı. Hər kəs kimi onun da gələcəyi ilə bağlı xəyal və arzuları var. Gələcəyinə böyük ümidlərlə baxan Firanənin seçdiyi peşə isə müəllimlikdir. Bu peşəyə sahib olduğu zaman üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə hazır olduğunu söylədi. Həmçinin o, məktəb tələbələrində fəallığı ilə ön plandadır. Asudə vaxtlarını isə, əl işləri düzəldərək və kitab oxuyaraq dəyərləndirir.

İsmiyevlər ailəsi 4 nəfərdən ibarətdir. Atası İsmiyev Vamik Məmmədağa oğlu 1981- ci il 29 iyunda anadan olub və kombayn sürücüsüdür. Anası Sadıqova Xəyalə Eynulla qızı 1983 - cü il 1 iyunda anadan olub, evdar xanımdır. Firanə dərslərində ailəsinin ona həmişə dəstək olduğunu da bildirib. Onun İsmiyev Röyal Vamik oğlu adında bir qardaşı var. O hal-hazırda 6-cı sinifdə oxuyur.

Biz də jurnalımız adından Firanəyə bol şans və daim böyük uğurlar arzulayırıq.

# ƏLİZADƏ SƏMA





Zəngilan rayonu 21 saylı orta məktəb

TƏRIFNAMƏ

verilir,

"Yarım ili müvəffəqiyyətlə başa vurduğuna görə"

kimə,

TƏHSİL MÜƏSSİSƏSİNİN DİREKTORU

SİNİF RƏHBƏRİ

**"Təhsil müqəddəs cihaddır. Alimlər tanrının güvəndiyi adamlardır və peyğəmbərlərin varisləridir."**

***Məhəmməd Peyğəmbər ( s. ə. s )***

Əgər bir gün yolunuzu itirsəniz, bir uşağın gözlərinin içinə baxın. Çünki bir uşağın bir yetkinə hər zaman öyrədə biləcəyi üç şey vardır: 1-səbəbsiz yerə xoşbəxt olmaq, 2- Hər zaman məşğul ola biləcək bir şey tapmaq, 3-əldə etmək istədiyi şey üçün var gücüylə söyləmək. Böyük uğurlar qiymətli anaların yetişdirdikləri seçmə uşaqlar sayəsində olmuşdur. Səməd Vurğunun belə bir sözü var: " Dünya bir evdirsə, övlad işıqdır, oğul arxadırsa, qız yaraşıqdır". İnsan bu dünyaya yaratmağa, yaşamağa və yaşatmağa gəlir. Yaşayaraq görür, öyrənir, məlumatlanır, böyük bir həyat dərsi keçir. Bu isə özbaşına yaranan, rahatlıqla ərsəyə gələn bir proses deyil. Bunun üçün illərin zəngin təcrübəsi və dərin mütaliəsi, həyat mübarizəsi lazımdır. Ən böyük çıxış yolu həyatın oxumaq, oxumaq, yenə də oxumaqdır. İnsan nə qədər bilsə bir o qədər böyük, zəngin və mübarizdir. Elm ideyalar dramı,öncədən yazılmış bir kitabdır. Təkcə alimlər deyil, adi insanlar da daima onu oxumağa və öyrənməyə çalışmaldırlar. Bu yolda insana ilk köməkdaş müəllimlərdir. Müəllimlə başlanan ilk təhsil həyatı insana böyük bir həyat xoşbəxtliyi yaşada və yarada bilər.

Ailəsinin göz nuru, yaraşığı olan, onların gələcəkdə fəxr mənbəyi olmağını arzu edən Əlizadə Səma Müşfiq qızı da elm-təhsil sahəsində orta məktəbdə seçilən şagirdlərdəndir. O, 28 iyul 2008-ci ildə Bakı şəhərində anadan olmuşdur. 2014-ci ildə Zəngilan rayon 21 saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. Səma xüsusi bir qayğı və nəvazişlə böyüdülmüş övladdır. Onun məqsədi dərslərini əla oxuyub ali məktəbə qəbul olmaqdır və savadlı bir kadr olmaq yönündə irəliləməkdir. Ürəyəyatımlılığı və şirindilliliyi ilə özünü hər yerdə sevdirməyi bacaran Səma, həm də ağlı, vətənpərvərliyi, kiçik yaşında böyük düşüncələri ilə yaşıdlarından fərqlənir. Məktəb həyatında da bu üstünlükləri ilə daha da irəliyə gedən Səma bu səbəbdəndir ki, müəllimlərinin diqqət mərkəzində olmağı bacarıb. Ən sevimli müəllimi Tənzilə müəllim, Sona müəllim ən sevdiyi fənn isə riyaziyyat və doğma ana dilidir. Boş vaxtlarını cizgi filmlərinə baxmaqla keçirən Səmanın arzusu gələcəkdə müəllim olmaqdır. O həm də, deyir ki, ona bu peşəni sevdirən müəllimləri kimi bilikli və öz işini layiqincə yerinə yetirən, məsuliyyətli bir müəllimə olacaq. Hər zaman sinifdə əlaçı olan Səmaya dərslərini yaxşı oxuyub, yarım ili müvəffəqiyyətlə başa vurduğuna görə məktəb rəhbərliyi tərəfindən tərifnamə də verilib. Onun ailəsi 4 nəfərdən ibarətdir. Valideynləri ziyalıdır. Odur ki, onlar da qızlarının savadlı və təhsilli bir gənc kimi yetişməsi istiqamətdə çalışır və dəstək olurlar.

Atası Əliyev Müşfiq Alı oğlu 1 avqust 1980-ci ildə anadan olub, hazırda Zəngilan rayon 21 saylı tam orta məktəbində Hərbi müəllim (GCHH) kimi çalışır.

Anası Əliyeva Sona Əkbər qızı 10 oktyabr 1984-cü ildə anadan olub, hazırda Zəngilan rayon 21 saylı tam orta məktəbində Azərbaycan dili və Ədəbiyyat müəllimi işləyir.

Bacısı Əlizadə Azəri Müşfiq qızı 14 mart 2006 -cı ildə anadan olub və Nəsimi rayon Texniki Hummanitar liseyinin 7-ci sinifində təhsil alır.

Biz də arzu edirik ki, Səma balamız da rəngarəng, uğur dolu olan bu həyat yolunda büdrəmədən, hər zaman inanaraq irəli getsin. Ailəsinin fəxri və sevinci olsun. Yolun açıq, ömür yolu parlaq olsun...!



# Hüsüyev Məhəmmədəli







**"Ləzzətlə yemədiyin yemək usandırıcı olduğu kimi, həvəslə məşğul olmadığın elm də hafizəni korlayır, o udduğunu mənimsəmək iqtidarında olmur"**

***(Leonardo Da Vinçi)***

Müasir insan elmin qanadlarında elə uzaqlara uçmuşdur ki, özündən ayrı düşsə də yenilik və texnoloji inkişafdan ayrı düşməmişdir. Bəli, biz həmin yüksələn inkişaf xətti ilə daha uzaq üfiqlərə yol alan həmin inkişaf əsrinin insanlarıyıq. Yaşadığımız 21-ci əsr isə bizdən ancaq elm və ağıl tələb edir. Çünki qüvvət və uğur elmdədir, ağıl isə elmin tətbiqində ortaya çıxarılan yeniliklərin ümumi yaradıcısıdır. Elmli və ağıllı şagirdlərin axtarışı ilə yola çıxan jurnalın növbəti müsahibi təhsili ilə yanaşı idman sahəsində böyük uğurlar əldə etmiş, çoxsaylı mükafat və diplomlara layiq görülmüş Ağdam rayon 32 № tam orta məktəbin 10 yaşlı şagirdi Məhəmmədəli Hüsüyevdir. 2014-cü ildə məktəb həyatına ilk qədəmlərini basan müsahibimiz hazırda həmin məktəbin 4-cü sinifində təhsil almaqla bir çox bacarıq və qabiliyyəti ilə həmyaşıdlarına örnəkdir. O dərslərini yaxşı və əla qiymətlərlə oxuması ilə yanaşı, həm də əsl idmançıdır. Riyaziyyat və həyat bilgisi fənni ilə daha çox məşğul olan Məhəmmədəli bu fənnləri sevərək oxuyur. Riyaziyyat elmlərin şahı və insan ruhunun divanəliyidir fikrinin müəllifi olan Uaythedlə həmfikirdir. Çünki bütün elmlər riyazi təfəkkür əsasında özünə cığır açaraq insan övladına həyatda yer tutmasına köməkçi olur. Elə bu fikri ona tez-tez aşılayan Xanım Məhərrəmova da onun ən sevimli müəllimidir. Dərsdən sonra asudə vaxtında idmanla mütəmadi məşğul olmaq, məntiqi təfəkkürün inkişafına xidmət edən interaktiv oyunlara baxmaq, intellektual verilişləri izləmək də onu bu yaşında daha savadlı və bilikli olmasına təkan verən sevimli məşğuliyyətidir. Öz sözləri ilə desək məşq fiziki gücünü, məntiq isə zehni gücünü artırır. Təsadüfi deyildir ki, 8 yaşından etibarən aktiv məşğul olduğu idmanın cüdo növü üzrə çox böyük nəaliyyət və uğurları var. Hansı ki, bu uğurlar 4-cü sinif şagirdi üçün nadir rast gəlinən nailiyyətlərdir ki, Məhəmmədəli bunun üzərindən layiqincə gəlir. Ötən iki il ərzində ölkə daxilində keçirilən cüdo yarışlarında nə az, nə çox düz iyirimi dəfə birinci yerə layiq görülüb, müxtəlif diplom və kupoklarla mükafatlandırılıb. Hətta imza atdığı ən böyük uğurlu nəticələrdən biri bəlkə də birincisi qardaş ölkə sayılan Türkiyədə olub. Belə ki, Türkiyənin Zonquldaq şəhərində keçirilən beynəlxalq dərəcəli cüdə yarışında iştirak hüququ qazanmaqla orda da öz liderliyini qoruyub saxlayıb, yeni bütün rəqiblərinə qalib gəlməklə birinci yerə çıxıb. O bütün qazandığı mükafat və diplomları qoruyub xatirə kimi saxlayır, axı bu onun keçmişinin ən xoş, ən sevimli nəticələridir. Və gələcəyi üçün böyük bir tramplindir. İki bacısına arxa-dayaq olan Məhəmmədli Hüsüyevin valideynləri də onun gələcəyi ilə bağlı ümidlidir. Atası Hüsüyev Telman Əmirxan oğlu bərbər işləyərək ailənin maddi durumunu təmin etməklə övladlarının gələcək həyatının da uğurlu təminatına öz töhfəsini verir. O istəyir ki, övladları ali təhsilli, cəmiyyətin sayılıb-seçilən şəxslərindən olsun. Elə anası Arzu Teymur qızı Hüsüyeva da eyni qənaətdədir. Hər iki valideyn və müəllimləri onun bu yaşındakı uğur və nailiyyətləri ilə qürur duyur və gələcəyinə böyük ümid bəsləyir. Valideynlərinə hörmətlə yanaşan gənc müsahibimiz öz gələcəyini idman sahəsində görür. Bilik və fiziki sağlamlıq harmoniyasını əsas gətirərək bu sahədə daha uğurlu olacağını düşünür. Hansı peşə və ixtisasdan asılı olmayaraq gərək onun peşəkarı olasan. Biz də əminik ki, Məhəmmədəli seçib yaxud seçəcəyi ixtisadan asılı olmayaraq onun ən peşəkar təmsilçilərindən olacaq. Bu uğurlu və əzmkar yolda, cüda idmanında ona bolluca uğurlar və sağlam mübarizə arzulayırıq. Çünki dahi Nizami Gəncəvi zamanında səbəbsiz deməyib:

**Bir elm öyrənmək istədikdə sən**
**Çalış ki, hər şeyi kamil biləsən**
**Kamil bir palançı olsa da insan**
**Yaxşıdır yarımçıq papaqçılıqdan**

***(Nizami Gəncəvi)***

# Həcər Məmmədova







**Bütün elmlərin bünövrəsi təhsillə qoyulur.**
**(Əbu Turxan)**

Açılan hər məktəb bir həbsxananın bağlanması deməkdir deyib böyük fransız mütəfəkkiri Vüqtor Hüqo. Həmin təhsil ocaqlarının illərlə yetişdirdiyi nəsillər isə məxusu olduğu ölkənin, dövlətin əsas sərvətidir desək yanılmarıq. Çünki əsas diqqəti, qayğısı insan kapitalına yönələn ölkələri tarix boyu "məğlub" etmək çətin olub. Əksinə zamanla həmin insan kapitalının qurub-yaratması ilə ucalaraq dünyada güclü iqtisadiyyat və siyasətə sahiblənib. Odur ki, elm və təhsillə başlanan uğurlu gələcəyə elə özülündən sağlam dəstək vermək və özündə güclü inam formalaşdırmaq lazımdır. Bilikli və inamlı gələcəyə birgə addımlamaqla jurnalımızın da əsas məqsədi bu istiqamətdəki dəstəyini o gələcəkdən əsirgəməməkdir. Jurnalımızın işıq üzü görən yeni sayında haqqında bəhs edəcəyimiz qabaqcıl bilikli və bacarıqlılarımızdan biri də Məmmədova Həcər Zeynal qızıdır. 15 oktyabr 2009-ci ildə dünyaya göz açan Həcər təhsil həyatına ilk qədəmlərini Bakı şəhəri 51 saylı tam orta məktəbdən başlayaraq elə ilk sinifdən məktəbin uğurlu şagirdlərindən olub. Hazırda həmin məktəbin 4-cü sinifində oxuyan Məmmədova bütün fənnlərə qarşı eyni məsuliyyətlə yanaşır, öz əlaçı mövqeyi ilə müəllim və sinif yoldaşlarının rəğbətini qazanıb. Doğma dilinə sayğısı çox olduğundan elə ən çox sevdiyi fənn də Azərbaycan dili, ən sevdiyi müəllimi də məhz ana dilini bütün şirinlikləri ilə ona mənimsədən Məsumə müəllimədir. Deyir ən böyük uğurum yaxşı oxumağım, asudə vaxtımın ən sevimli məşğuliyyəti isə kitab oxumağımdır. Onun elm yolunda inamlı addımlamasına ən yaxın dəstəkçisi və motivasiya mənbəyi müəllimləri ilə yanaşı zəhmətkeş valideynləridir. İllərdir atası Zeynal Məmmədov elektrikçi kimi şərəfli peşə ilə məşğuldur. O əmindir ki, qızı da elm yolunda bir qığılcım tək alovlanıb ətrafını işıqlandıracaq və onun nurundan millətinin neçə-neçə daha yeni nəsli nurlanacaq. Onun bu arzusuna həmfikir olan anası Fəridə Məmmədova özü evdar xanım olsa da qızını cəmiyyətin gələcəkdə xeyir verən bir siması olmasına inanır. Həcər həm də yeganə qardaşı İlkin Məmmədova da örnəkdir. "Çalış ki, hər şeyi kamil biləsən" deyimini əqidəsinə şüar tutan müsahibimiz gələcək peşəsini də indidən seçərək özünü gələcəyin həkimi kimi görür. Elm, insan qocalsa da, peşələr heç vaxt qocalmır, elə arzular da. Odur ki, Həcər Məmmədovaya gələcəyin həkimi kimi görmək istədiyimizi biz də ürəkdən arzu edərək ona işıqlı həyat yolunda inamla addımlamağı tövsiyyə edirik. Axı xəyal qanadlarında uçan elm möcüzələr yaratmağa qadirdir. Qoy bu möcüzələr onun da həyatında bol olsun.





# Məlikov Vaqif





***Bağlı bir qapıya açar axtarsan,***
***Ancaq alimlərdə axtar, taparsan.***
***(Nizami Gəncəvi)***

Alimlərin ruhu elm məbədində əbədi həyata qovuşar. Bəşəriyyəti xoşbəxtliyə, həqiqətə, ədalətə ancaq elm apara bilər kimi deyimlərdən də aydın görünür ki, elm böyük gücə malik qüvvədir. Elmsiz cəmiyyət gec-tez uçuruma doğru gedər və tarixi keçmişə qovuşar. Çünki cəmiyyətlər, ölkələr işləyən insan beyni əsasında idarə olunur və inkişaf etdirilir. Zamanla hər bir sahədə olduğu kimi elmdə də böyük inqilabi kəşflər, təkamül prosesi baş verir ki, bütün dünyada buna şahid oluruq zamanla. Hazırda 21-ci əsr böyük kəşflər əsri olduğuna görə bu kəşflərə açıq və çalışan cəmiyyətlər öz inkişaf mərhələsinin ən yeni dönəmlərini yaşayır və sivil cəmiyyət olaraq təhsil, elm məsələlərində bütün ciddi problemlərini həll edib vətəndaşları üçün rahat və əlçatan yaşam tərzi qurublar. Bu da insan kapitalına olan maraq və təhsilin inkişaf səviyyəsindən asılıdır. 21-ci əsrin inkişaf etməkdə olan ölkəsi olaraq bizim ölkənin də ixtisaslı kadrlara, yüksək təhsil sisteminə və güclü iqtisadiyyata ehtiyacı var. Bunlar isə gənclərin, yeni nəslin öhdəsinə düşən və onlardan asılı olan bir məsələdir. Nə qədər təhsil arxasınca gedən və onu həyat qayəsi seçən şagirdlər, gənclər olarsa bir o qədər gələcək parlaq görünər. Jurnalın əsas yaranma qayəsi olan bu mövzudan çıxış edib növbəti buraxılışının seçmə qəhrəmanlarından biri olan Vaqif Məlikovu bu yazıda təqdim edirik.

Məlikov Vaqif Anar oğlu 2007-ci ilin iyunun 19-da Bakı şəhərində dünyaya göz açıb. Maraqlıdır ki, onun dünyaya gəlişi belə qeyri -adi formada olub. Vaqif doğularkən anası yolda olduğundan o, taksidə doğulmaq məcburiyyətində qalıb. 2015-ci ilin tədris ilində Şuşa qəsəbəsindəki 1 saylı tam orta məktəbə yollanan Vaqif hazırda həmin məktəbin 4a sinif şagirdidir. Baxmayaraq ki, 4 ildir təhsil alır, lakin elə ilk gündən sinfin seçmə şagirdlərindən biri və əlaçısı olub. İbtidai sinif təhsili alan qəhrəmanımız ona keçilən bütün fənləri sevir, sinif rəhbəri Naciyə müəllimdir. Həmişə dərslərinə yaxşı hazırlaşıb, yüksək nəticə göstərib. Sinfin birincisi adını qazanmaqla iki dəfə sınaq imtahanından 700 bal yığmaqla birinci yerə çıxıb. Asudə vaxtlarında uşaq ensklopediyasını mütaliə edən Vaqif eyni zamanda fərdi inkişafı naminə bir sıra hazırlıqlara gedir. Onun gələcəyi ilə bağlı böyük arzuları və həyata keçirmək istədikləri var. Bütün fənləri yaxşı oxumaqla gələcəkdə özünü hüquq sitemində görür. Ali təhsilli peşəkar bir polis kimi yetişib ləyaqətlə xalqına xidmət etmək istəyir. Ailəsi də onu dəstəkləyərək böyüyəndə cəmiyyətdə öz layiqli yerini tutmasını arzulayırlar. Evin tək övladı olan Vaqifin atası 1979-cu il təvəllüdlü Məlikov Anar Vaqif oğludur. Anası 1976-cı il təvəllüdlü Məmmədova Ruhiyə Səfər qızı məktəbdə xidməti işçi kimi çalışır.

Elm-təhsil almaq yolunda Vaqif Məlikova redaksiyamız adından uğurlar arzulayaraq həmişə birincilərdən olmağı diləyirik. Gələcək həyatı parlaq, arzuları çin, doğmalarının fəxri olsun daima.

# MƏMMƏDLİ ƏKBƏR



**"Elmlər insan ruhunun gözünü təmizləyir və yenidən açır. Ruhun gözü min dənə adi gözdən önəmlidir. Çünki ancaq onun köməyi ilə həqiqəti görmək mümkündür"**

**(Platon)**

Elm, irfan, bilik. Bunların həyatımızda əvəzsiz əhəmiyyəti var. İnsanın həyatda bioloji rolundan başqa mənəvi rolu da var. Mənəviyyatı olmayan insanın nə özünə, nə də cəmiyyətə faydası olmaz. Məhz elm insana mənəvi zənginlik gətirir, onu kamilləşdirir. Təsadüfi deyil ki, atalarımız da "Elm mərtəbəsi uca olar" deyiblər. Bu mərtəbənin aliliyi ordadır ki, bizi cəhlət quyusundan çıxarıb çox yüksəklərə ucaldır. Məhz bunun sayəsində insan həyatda öz mənliyini tapır. Cahil insan heç vaxt nə özünə, nə də ətrafına fayda verə bilməz. Əksinə, o öz cahilliyi ilə ətrafındakılara da zərər verər. Hər kəsi öz cəhalət quyusuna çəkər. Kamil olanlar ona inanmaz, elmə biliyə yönələr. Axmaqlar isə tez təsir altına düşər. Ağlın yolu isə oxumaqdan, mütaliədən keçir. Elə sonuncu yolda inamla addımlayan və jurnalımızın əməkdaşları tərəfindən istedadlı və bacarıqlı xüsusiyyətlərinə görə seçilərək bu yazısında işıqlandırdığı Məmmədli Əkbər də nümunəvi şagirdlərdəndir.

Məmmədli Əkbər Əli oğlu 2006-cı il 11 dekabrda Sabirabad rayonunda anadan olub. 2013-cü ildə birinci sinfə Bakı şəhər 14 saylı tam orta məktəbdə başlayan Əkbər hazırda Nəriman Nərimanov adına 2 saylı Beynəlmiləl Təbiət və Texniki təmayüllü məktəb-liseyin 6a sinif şagirdidir. Ən sevdiyi dərs Azərbaycan dili dərsi, ən sevdiyi müəllim isə Əzbikə müəllimdir. Əkbər öz təlim-tərbiyyəsi və mədəniyyəti ilə hər zaman seçilən bir şagirdlərdən biridir. Elə bu səbəbdən də təlim-tərbiyyəsinə görə fəxri fərmanla təltif olunmuşdur. O dərslərini yaxşı oxumaqla yanaşı idmanla da məşğul olur. Belə ki, Əkbər artıq 4 ildir ki, Yunan-Roma güləşi ilə məşğul olur. Bu sahədə onun bir çox uğurları da var. O, 2015-ci ildə Yunan-Roma güləşi üzrə Yevlax şəhərində Respublika turnirinin 2-cisi olmuşdur. Lakin onun uğurları bununla da yekunlaşmır. O bu idman növü üzrə dəfələrlə yüksək mükafatlara layiq görülərək doğmalarının və müəllimlərinin sevindirib. Həmçinin eyni güləş növü üzrə 2017-ci ildə 23 kq çəki dərəcəsi üzrə respublika 2-cisi olub. Təsadüfi deyil ki, elə ən böyük arzusu da bu idman növü üzrə dünya çempionu olmaqdır. Gələcəkdə çevik polis alayında olmaq məqsədi onun vətənini necə sevən bir vətəndaş kimi formalaşdırıldığının bariz sübutudur.

Əkbərin atası Məmmədov Əli Arif oğlu ticarətlə məşğul olur. Anası Qədirova Fidan Akif qızı isə evdar qadındır. Əkbərin bacısı Məmmədli Məlahət Əli qızı 8-ci sinif şagirdidir. Qardaşı Məmmədli İbrahimin isə 4 yaşı var.

Biz Əkbərə gələcək həyatında uğur və müvəffəqiyyətlər arzulayırıq. Və onun güclü idmançı, dürüst, ədalətli polis olacağına əminik.



# Məmmədzadə Nihad







**"Əgər alim bilmirəm kəlməsi barədə qafil olarsa özünü həlak etmiş olar".**

***(İmam Məlik)***

Başqalarından daha uzağı görmək istəyirsənsə onda gərək həyata nəhənglərin çiynindən baxasan. Əks halda nə həyatı, nə də onun insan üçün ifadə etdiyi mənanı anlamayacaqsan. Həyatı anlamaq və dərk etmək özünüdərkdən başlayır ki, bu da insan övladının elm-təhsil yolundakı çabasından və əxz etdiklərindən asılıdır. Nə qədər bilsən, nə qədər öyrənsən, bir o qədərsən sən. Müdriklik tək özünü dərk deyil, həm də dünyanı və onun mövcudluğunun dərkinə xidmət edir. Təhsilin və biliyin insan həyatındakı danılmaz rolundan xəbərdar olan növbəti müsahibimiz Nihad Məmmədzadə də az yaşına daha çox bacarıq və bilik qatanlardandır. O, 6 fevral 2005-ci il ildə Füzuli rayonunda doğulub. Təhsil həyatına isə 2011-ci ildə Ağdam rayon 32 nömrəli tam orta məktəbdən başlayıb. Hazırda həmin məktəbin 8-ci sinifində təhsil alan Nihad 14 yaşına elm və idman sahəsindən bir çox uğurlar sığdırıb. Asudə vaxtında mütəmadi olaraq məşğul olduğu güləş idman növü ona bir neçə qızıl medal və diplom qazandırıb. Uşaqlıqdan indiyə qədər isə öyrəndiyi fənlər arasından riyaziyyat ən sevimlisi, onu tədris edən Almaz müəllim isə ən idealıdır. Onun sözlərinə görə elmi, fənni sevdirmək onu tədris edən müəllimin peşəkarlıq səviyyəsi və peşəsinə olan sevgisindən asılıdır. Əks halda nə özü sevilər, nə də fənni. Şagird isə həm bilikdən məhrum olar, həm də o biliyin onun gələcəyində oynayacaq üstünlükdən. Odur ki, gələcəkdə güləşçi olaraq planlaşdırdığı peşəsini bilikdən məhrum etmək istəməyən müsahibimiz bütün fənnləri oxumaq və öyrənmək istəyir. Boş vaxtlarında müxtəlif idman oyunları ilə məşğul olan Nihada zəhmetkeş ailəsi Məmmədov Pərviz Qaryağdı oğlu və öyüd - məsləhətləri ilə ona hər zaman dost olan anası Məmmədova Xalidə Rüstəm qızı da arxa-dayaqdır. Elə qardaşı Məmmədzadə Çoşqun Pərviz oğlu da həm qardaşından öyrənir, həm də onu sevir. Öz halal zəhmətləri hesabına dolanan bu ailə çəkilən hər cəfanın bəhrəsi olaraq övladının xoş gələcəyini görməyi ən böyük arzuları hesab edirlər. Rəhmətə gedən atasının oğlu ilə bağlı ən böyük arzusu onun gələcəkdə tanınmış idmançı kimi yetişməsidir. Elm əvvəlcədən yazılmış kitab olduğundan gənc nəsil onu artırmadan öncə yazılanı öyrənməldir. Elə bu öyrənmə və öyrətmə yolunda Məmmədzadə Nihada çoxlu uğur və parlaq gələcək arzulayırıq. Müəllimlərinin və anasının, doğmalarının daim iftixarı, qürur mənbəyi olsun. Atasının ruhunu öz uğurları ilə sevindirsin.



# RAUF QURBANOV






**”Yaxşı kitablar oxumaq keçmiş əsrlərin ağıllı adamaları ilə söhbət etmək deməkdir”**
**(R. Dekart)**

Bir xalq yalnız savadlı cəmiyyəti, inkişaf etmiş elmi ilə qürur duya bilər. Yalnız savadlı cəmiyyətlə irəli getmək, uğurlara nail olmaq, ölkəni tanıtmaq mümkündür. Elmin vacibliyini hələ qədim zamanlardan dərk ediblər. Ta qədim zamanlardan elmdə nailiyyətlər əldə etmək üçün çalışıblar. Təbiəti öyrənib, bununla cəmiyyəti məlumatlandırmağa səy göstərib. Dediyim kimi, savadsız cəmiyyət heç kimə lazım deyil. Hazırda da dövlət savadlı kadrların hesabına iqtisadi, hərbi və elm sahəsində irəliləməyi qarşıya məqsəd qoyub. Yalnız savadlı, təhsilli gənclərin hesabına bu sahələrdə uğurlar qazanmaq, beynəlxlaq arenada Azərbaycanı layiqincə təmsil etmək mümkündür. Buna görə də ölkəmizin savadlı, yüksək təhsilli kadrlara böyük ehtiyacı var. Hər zaman ixtisaslı kadrlar olmalıdır ki, ölkəmizin gələcək inkişafı əmin əllərdə olsun. Elə jurnalımızın da əsas qayəsi buna xidmət edir ki, ölkənin ümumtəhsil ocaqlarında savadı və bacarığı ilə seçilən nümunəvi şagirdləri tanımaq və tanıtmaqdır. Bu günkü həmsöhbətimiz Rauf ilə istərdim ki,sizləri də yaxından tanış edək.

Rauf Qurbanov Elşən oğlu 2007-ci il aprelin 18 - i Bakı şəhərində anadan olub. O, 2013-cü ildə ilk dəfə olaraq Kürkəndi kənd ümumi orta məktəbində oxumağa başlayıb. Bu ağıllı oğlan hal-hazırda elə o məktəbin 6-ci sinif şagirdidir. Bütün müəllimlərə hörmət edib sevgilərini qazanan Rauf, çalışqanlığı və istedadlı ilə seçilir. Raufun ən çox sevdiyin dərslər, riyaziyyat, coğrafiya, ingilis dilidir. Bu fənləri ona sevdirən müəllimlərinin adını çəkməyi də unutmadı. O İlqar müəllim,Kifayət müəllimi və Xatirə müəllimi daha çox sevdiyini vurğuladı. Raufun ən böyük arzusu isə musiqiçi olmaqdır. O da ölkəmizin dahi bəstəkarları kimi Azərbaycan musiqisini yaşatmaq istəyir. Azərbaycan musiqisi - Azərbaycan mədəniyyətinin bir qolu olub, Azərbaycan milli folklorunu təmsil edən, xalq və ya ayrı-ayrı azərbaycanlı bəstəkarlar tərəfindən yaradılmışdır. Asudə vaxtlarını isə rəsm çəkərək qiymətləndirir. Həmçinin o, anasına kömək eləməyi də özünə borc bilir.

Atası Qurbanov Elşən,anası isə Qurbanova Könüldür. O, Sabirabad Rayon Regional Perintal Mərkəzində işləyir. Raufun Emin adlı bir igid qardaşı, həmyaşıd Minayə adlı isə bir gözəl bacısı var.

Jurnalımız adından bu ağıllı balaya parlaq gələcək,həyatında müvəffəqiyyət və bol nailiyyət arzu edirik. Qoy gələcək həyatı parlaq, ömür yolu maraqlı həyat təcrübəsi ilə zəngin olsun.



# Nihad Məmmədli



**Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyyatla nəsillərdən nəsillərə yetirən fikir gəmisidir.**
**(F. Bekon)**

Bilikli, savadlı, zəkalı olmaq hər bir insanın yoluna işıq saçır. Elm həm də dünya görüşüdür,insanı ucaldan mənəvi yüksəlişdir. İnsan yalnız elmi bacarığı ilə digər şəxslərdən seçilə bilər. Həmçinin, bilikli insanlarla həm söhbət olmaq bizlərə bir çox yeni məlumatlar da qazandırır. Çalışdığımız qədər bilikli insanlarla münasibət qurub bu biliklərdən yararlanmalı və vaxtımızı təhsillə, elmlə dəyərləndirməliyik. Elə məhz müsahibimiz Nihat da elmə, dərslərinə önəm verən şagirdlərdən biridir.

Məmmədli Nihad İqbal oğlu 2009-cu ildə noyabrın 25-də Biləsuvar rayonunda anadan olub. 2012-ci ildə orta məktəbə yollanan Nihad hazırda Nemət Sultanov adına Dərvişli kənd tam orta məktəbinin 4b sinfində təhsil alır. Bu çalışqan və savadlı oğlan gələcəkdə polis olmağı arzulayır. Nihad bilir ki, bunun üçün o dərslərini yaxşı hazırlamalı və qətiyyətlə çalışmalıdır. Axı polis olmaq insanları qorumaq və ən çətin anlarında onlara dəstək durmaq deməkdir. Nihadın ən çox sevdiyi fənn isə, riyaziyyat fənnidir. Nihad bu dərsi ona sevdirən Təranə müəllimi çox istədiyini söyləyir. Futbola qarşı marağı olan Nihad asudə vaxtlarını sevdiyi dostları ilə futbol oynamaqla keçirir.

Atası İqbal bəy, anası isə Kəmalə xanımdır. Hər bir valideyn kimi onlar da övladlarının uğurlu, bilikli bir gənc kimi yetişməsini və vətənin keşiyində durmağını arzu edirlər. Nihadın 3 bacısı var. Ailənin tək oğlan övladı olan Nihad deyir ki: “Mən bacılarımı çox istəyirəm”.

Bizdə kollektimiz adından Nihad balaya dərslərində və həyatında bol-bol uğurlar arzu edir, gələcəkdə vicdanlı polis olmağını arzulayırıq.

# Nihad Xaliqov





**”Son 90 gün ərzində kitab oxumamaqdan daha pisi kitab oxumadığına görə narahat olmamaqdır”**

**(Cim Ron)**

Seçdiyimiz peşədən asılı olmayaraq hər sahədə insan müəyyən savad və biliyə malik olmalıdır. İstər alim ol, istər usta, istərsə də dərzi hər zaman biliyi və savadı özünüzdən əsirgəməyin. Atatürk deyib ki, mən idmançının zəkalı sürətli və tərbiyəli olanını çox istəyirəm. Buna görə də, hər zaman təhsilə önəm verməli və onu həyatımızda qabaqcıl mövqedə tutmalıyıq. Elmsiz, təhsilsiz bir insan həyat yolunda düzgün və doğru şəkildə addımlaya bilməz. Necə ki, qəpikləri bir yerə yığanda manatlar əmələ gəlir, oxuduğun hər şeydən də bilik yaranır.

Jurnalımızın bu sayının istedadlı qəhrəmanlarından biri də bacarıqlı və ağıllı Nihad Xaliqovdur. O artıq kiçik yaşlarından biliyin, savadın, insana verdiyi töhfələri anlamış və bunun fərqində olaraq müəyyən bilik və təhsildən yararlanmağa çalışan şagirdlərdəndir. Bu balaca qəhrəmanımız ölkəmizin isti guşələrindən biri olan Sabirabad rayonundandır. Nihad Xaliqov Rəşad oğlu 2011-ci il martın 27-də Sabirabad rayonu Qaraağac kəndində anadan olub. 2017-ci ildə Qaraağaç tam orta məktəbinin 1-ci sinifinə getməyə başlayıb. Hal -hazırda o, həmin məktəbin 2a sinifində təhsil alır. Dərslərində istedadı ilə fərqlənən Nihad gələcəkdə polis olmağı arzulayır. Balaca olmağına baxmayaraq, o artıq bir çox uğurlar əldə edib. İştirak etdiyi kurslardan yüksək nəticə əldə edib. Hər bir uşağın arzu və xəyalları olduğu kimi Nihad balanın da arzu və xəyalları var. O boş vaxtlarını şəkil çəkərək dəyərləndirir. Ən çox sevdiyi və həvəskar olduğu fənlər ana dili və riyaziyyatdır. Bu dərsləri ona sevdirən müəllimlər isə Könül və Səbinə müəllimdir.

Nihadın ailəsi 5 nəfərdən ibarətdir. Atası Rəşad Xalıqov çay evində işləyir. Anası Xalıqova Sevil isə evdar xanımdır. Hər bir valideyn kimi Nihadın ata və anası onun böyüyəndə savadlı, bilikli bir gənc olmağını, vətənin keşiyində durmağını, layiqli bir vətəndaş olmasını arzu edirlər.

Unutmayaq ki, biz insanları özümüzü nə hesab etməyimizi oxuduqlarımız müəyyən edir. Odur ki, oxumaq, oxumaq və yenə də oxumaq özümüzü daha yaxşı tanımağa və kəşf etməyə yardımçı olar. Odur ki, oxumaq əqidəsində israrlı olan bu balaca məktəbliyə redaksiyamız adından biz də dərslərində və həyatında bol uğur və nailiyyət arzulayırıq. Yolun açıq, gələcəyin parlaq və doğru istiqamətdə olsun.



# MİNAYƏ QURBANOVA





**”Kitabsız yaşamaq, kor, kar, dilsiz yaşamaqdır”**

**(Seneka)**

Elm insanın həyat yolunu aydınladan, onun həyatına gələcəyinə işıq tutan bir vasitədir. Bilik xəzinədir, deyib böyüklərimiz. Biz də böyüklərimizin bu sözünü hər zaman xatırmalı və əlimizdən gələn qədər elmə təhsilə vaxtımızı ayırmalıyıq. Sivilizasiya dövrüdür, dünya dövlətlərinə inteqrasiya əsridir. Bütün bu problemlərin həlli yolu elm, təhsil yoludur. Dövlətimiz, prezidentimiz bu yolda millətimizə, vətənimizə böyük köməklik göstərib bu sahəni ciddi nəzarət altına götürməli və təhsilin yüksək keyfiyyətinə çatdırılması istiqamətində mühüm addımlar atılmalıdır. Hazırda müəyyən işlər aparılsa da ancaq unutmaq lazım deyil ki, ciddi islahatlara və yüksək nəticələrə böyük ehtiyac var. Təhsilimizin daha da inkişaf etdirilməsi üçün “Təhsil Qanunları” hazırlanıb, fərmanlar verilir. Təhsil ocaqlarının, məktəblərin təmiri, yenidən qurulması, inşa edilməsinə böyük maddi vəsaitlər xərclənir.

Bütün bunlarla yanaşı, biz müstəqil Azərbaycan vətəndaşları olaraq, təhsilimizin gücləndirməsi, inkişaf etdirilməsi üçün böyük işlər görməliyik: oxumalı, çalışmalı, uca zirvələr fəth etməliyik.

Zaman geri qaytarılması mümkün olmayan bir məfhumdur. Bu səbəbdən də hər keçən dəqiqənin, saatın qiymətini bilmək lazımdır. Elə məktəbli müsahibimiz olan Minayə Qurbanova da bu qənaətdədir.

Minayə Qurbanova Elşən qızı 18 aprel 2007-ci ildə Bakı şəhərində anadan olmuşdur. 2013-cü ildə Kürkəndi kənd ümumi orta məktəbinə başlayan Minayə indi həmin məktəbin 6-cı sinifində təhsil alır. Minayə dərslərinə qarşı məsuliyyətli və olduqca diqqətlidir. Məhz bu səbəbdən də o sevdiyi bir sıra dərslər var. Riyaziyyat, coğrafiya və fizika bu fənlər arasındadır. Müəllimlərinin zəhmətkeş olduğunu söyləyən bu ağıllı bala Kifayət müəllimi, Hilalə müəllimi və İlqar müəllimi çox sevdiyini vurğuladı. Bu gözəl balanın elə bir uğuru var ki, bu uğur onu hər kəsdən fərqləndirir. Minayə məktəbin ən yaxşı şagirdi müsabiqəsinin qalibi olaraq, bir daha ailəsinin və sevdiklərinin qürur mənbəyi olmuşdur. Hər bir şagird kimi Minayənin də gələcəyinə dair arzuları var. Ən böyük arzusu isə gələcəkdə həkim olub insanlara çətin anlarında kömək olmaqdır. Buna görə də Nazilə boş zamanlarında daha cox kitab oxuyaraq vaxtını səmərəli istifadə edir. Ölkəmizin savadlı, zəkalı həkimlərə ehtiyaci var. Ümid edirik ki Minayə də, bu gənclərdən biri olacaq və ailəsini hər zaman qürurlandıracaq.

Atası Qurbanov Elşən Rauf oğlu,anası Qurbanova Könül Sabirabad Rayon Regional Perinatal mərkəzində işləyir. Onun iki qardaşı var. Qurbanov Rauf 6-ci sinif və Qurbanov Emin isə 4-cü sinifdə oxuyur. Minayə sonda əlavə etdi ki,o ailəsini çox sevir və hər zaman onları qürurlandırmaq istəyir.

Biz də jurnalımız adından Minayə balamıza gələcəkdə həkim olmağı arzusunun reallaşmasını arzu edir, uğurlarının davamlı olmasını diləyirik.

# QURBANOV EMİN





**"Yazıçılar ölməmişdən öncə minlərlə həyatı yaşayırlar. Kitab oxumayan insanlar isə yalnız bir həyatı yaşayırlar".**
**(D. Martin)**

Son dövrlərdə təhsildə tətbiq olunan yeniliklərin uğurlu fəaliyyət nəticəsində həyata keçirilməsi bu strategiyanın gələcəkdə böyük nəticələr verəcəyinə əsas verir. Artıq deyə bilərik ki, müasir elmlə və müasir təhsil sistemi ilə ayaqlaşan Azərbaycan təhsil sistemi dünya təhsilində öz yerini tapmaqdadır. Biz şagirdlər isə yaradılan imkanlardan məharətlə faydalanmalıyıq. Yadda saxlamaq lazımdır ki, bütün bunlar bizim savadlanmağımız üçündür. Dediyim kimi, savadsız cəmiyyət heç kimə lazım deyil. Hazırda da dövlət savadlı kadrların hesabına iqtisadi, hərbi və elm sahəsində irəliləməyi qarşıya məqsəd qoyub. Yalnız savadlı, təhsilli gənclərin hesabına bu sahələrdə uğurlar qazanmaq, beynəlxlaq arenada Azərbaycanı layiqincə təmsil etmək mümkündür. Son dövrlərdə təhsildə tətbiq olunan yeniliklərin uğurlu fəaliyyət nəticəsində həyata keçirilməsi bu strategiyanın gələcəkdə böyük nəticələr verəcəyini əsas verir. Artıq deyə bilərik ki, müasir elmlə və müasir təhsil sistemi ilə ayaqlaşan dünya ölkələrinin təhsil sisteminə Azərbaycan təhsil sistemi tam uyğunlaşdırılmalıdır.

Azərbaycanımızın firavanlığı, çiçəklənməsi, qüdrətlənməsi, bütün dünyada öz sözünü əzmlə deyə biləcəyi naminə əlimizdən gələni əsirgəməməliyik!

Müsahibimiz Emin Qurbanov Elşən oğlu 2009 - cü il dekabrın 12-si Bakı şəhərində dünyaya gəlib. O,2015 -ci ildə Kürkəndi kənd ümumi orta məktəbinə yollanıb. Hal-hazırda bu istedadlı bala bu məktəbin 4- cü sinifində təhsilini davam etdirir. Eminin həvəskar olduğu bir çox fənlər var. Bunlar Ana dili, riyaziyyat və həyat bilgisidir. Emin bu fənləri ona tədris edən Ülviyyə müəllimini çox sevdiyini deyərək, dərsinə diqqətlə qulaq asıb, yerinə yetirdiyini bildirdi. Eminin gələcəkdə ən böyük arzularından biri də, polis olmaqdır. Polis xalqımıza, müstəqil Azərbaycan dövlətinə, onun hər bir vətəndaşına xidmət edir. O, bu vəzifəni böyüdüyü zaman layiqincə təmsil etməyə hazır olduğunu da vurğuladı. O,boş zamanlarında təmiz havada gəzməyi və kitab oxuyaraq mütaliə etməyi çox sevir.

Atası Qurbanov Elşən bəydir. Anası Qurbanova Könül xanımdır. O, övladına dərslərində hər zaman kömək etdiyini və dəstək olduğunu söylədi. Eminin gözəl bir bacısı və qardaşı var.

Redaksiyamız adından bu istedadlı şagirdə dərslərində bol uğur, xəyalını qurduğu bütün arzularının gerçək olmasını diləyirik. Unutmayın xəyallar insanın oxuduqları ilə müəyyən olunur.



# RAMAZANOV AKŞİN



**"Kitabları yandırmaqdan da pis cinayət, məsələn, onları oxumamaq"**
***(Rey Bredberi)***

Təhsil insan ruhunun qidasıdır. Hər bir millətin tərəqqisi və başlıca amili elm və düzgün əxlaqdır. Tərbiyə də, ancaq elmin gücü ilə mümkündür. Insanlar təhsil üçün yox təhsil insanları maarifləndirmək üçündür deyib böyüklərimiz. Hər bir kəs yalnız elmin gücü ilə ucala bilər. Arzu və xəyallarımızı gərcəkləşdirmənin yollarından biri də elmin ətəyindən bərk yapışmaqdır. Böyüklərimizin sözlərinə hər zaman qulaq asmalı,onların dedikləri məsləhətləri eşitməli və yerinə yetirməliyik. Oxuduğuna əməl etməyən alim məşəl gəzdirən kora bənzər. Müsahibimiz də ağıllı bir baladır. İndi isə onu daha yaxından tanıyaq.

Ramazanov Akşin Musa oğlu Mayın 1-i 2003-cu ildə Sabirabad rayonunun Qaraağaç kəndində anadan olub. 2010-cu ildə Qaraağaç kənd tam orta məktəbində təhsilinə başlayan Akşin hələ də təhsilini elə o məktəbin 9a sinifində davam etdirir. Çalışqanlığı ilə seçilən Akşin, artıq sınaqlarda da bir sıra uğurlar əldə etməyə başlayıb. Topladığı yüksək ballarla artıq indidən dərsə olan münasibətini doğrultmağa başlayıb. Dərslərində Akşinə kömək olan müəllimlərinin adını çəkməyi də unutmadı. O daha çox Şahnaz müəllim, Sabirxan müəllim və Rasim müəllimi çox istədiyini əlavə etdi. Hər bir şagird kimi Akşinin də, gələcəyi ilə bağlı bir sıra xəyalları var. Akşin bala istəyir ki, o gələcəkdə polis və yaxud mühəndis olsun. Zaman keçdikcə o bu peşələrdən birini özünə seçəcək, amma əsas odur ki, o düzgün və doğru yolda məqsədlərinə doğru addımlasın. Akşin asudə vaxtlarında kitab oxumağı çox sevir. O, xüsusi ilə fizika fənninə daha çox vaxt ayırdığını deyir. Ən sevdiyi fənlər isə Azərbaycan dili, ədəbiyyat və riyaziyyatdır.

Bu gözəl ailə 4 nəfərdən ibarətdir. Atası Musa Ramazanov işləyir. Anası Ramazanova Lamiyyə xanım isə evdar qadındır və övladına dərslərində kömək edir. Akşinin bir bacısı var və o, 11- ci sinifdə oxuyur. Akşin ailəsini çox sevdiyini söyləyir və hər zaman onların fəxri, sevinci olacağına söz verir.

Kollektivimiz adından biz də Akşinə gələcək həyatında arzularını reallaşdırmağını və bol uğur qazanmağını diləyirik. Qoy oxuduğu hər bir elm ona ömür yolunda işıq saçsın.

# Babayev Rafiq Anar oğlu








**"İnsanlar uzun müddət misi qızıla çevirmək arzusunda olublar. İndi elm misi elə şeylərə çevirir ki, qızıl ona həsəd aparır"**

***(Tur Xander)***

Müasir dövr insanını sivilizasiyanın inkişaf istiqaməti, elmi səviyyə və dərin bilik maraqlandırır. Onun üçün də hər gələcək özü ilə gələcək həyata uyğunlaşması üçün yüksək təhsilə yiyələnməlidir. Tərbiyənin özülü ailədə qoyulduğu kimi, təhsilin də təməli məktəbdə qoyulur. Təməl bilgisi zəif olan insanın sonrakı yaşam meyarında bu çatışmazlıq özünü mütləq göstərir. Elmsiz insan çıraqsız evə bənzədiyi kimi, onu ucaldan da, yolunu işıqlandıran da məhz elm, təhsildir. Öyrənməyə həvəs göstərən və bu yolda əmin addımlarla irəliləyən gənclərimizdən biri də Rafiq Babayevdir. O, 2006-cı ilin sentyabrın 13-də Bakı şəhərində doğulub. Təhsil həyatına ilk qədəmlərini isə 2013-cü ildə ataraq Bakı şəhəri 99 saylı tam orta məktəbin birinci sinifinə gedib. Hazırda həmin məktəbin 6b sinifində təhsil almaqla seçilən şagirdlərdəndir. İstər dərslərində, istərsə boş vaxtlarının səmərəli təşkilində aktivliyi və kreativliyi ilə seçilən bu şagird 13 yaşına bir xeyli uğurlar da sığışdırıb. İdmanla müntəzəm məşğul olan müsahibimiz cüda idman növü üzrə 3-cü yerə layiq görülməklə bir neçə medal və diplomla təltif olunub. Təkcə idmanla deyil, eyni zamanda rəqslə də məşğul olaraq özünü inkişaf etdirən Rafiq təkcə elmli olmağı deyil, həm də digər peşə və məşğuliyyətlərdən anlayışlı olmağı tərcih edir. Onun fikirlərinə görə elm zehnə, idman sağlamlığa, musiqi isə ruha xidmət etməklə insanı bir ali varlıq vəhdətində inkişaf elətdirir. Dərslərini sevərək öyrənən Rafiqin ən sevdiyi fənnlər azərbaycan və ingilis dili fənləri, ən sevimli müəllimləri isə həmin fənnlərin tədrisçiləri Elmira və Samirə müəllimdir. Gələcək peşəsini hələlik tam dəqiqləşdirməsə də ya idman, ya da hüquq sahəsindən birinə yönələciyini planlaşdırır. Ailə üzvlərindən atası Babayev Anar Zabit oğlu Fövqəladə Hallar Nazirliyinin əməkdaşı, anası isə anası Xavər Babayeva isə evdar xanımdır. Həmyaşıd Nigar Babayeva adında bacısı, özündən 9 yaş kiçik Hüseyn Babayev adında qardaşı var. Bütün ailə onu sevir və gələcəyinə inamla yanaşaraq böyük gözləntilər bəsləyir, eləcə də təhsil aldığı məktəbin müəllim və şagird kollektivi də. Hər bir elm dəqiq təxminlərə söykəndiyi kimi, onun da öz gələcəyi ilə bağlı xoş təxminləri elm və təhsil sayəsində çin olsun deyərək Rafiqə təhsil və gələcək ömür yolunda uğur, zehin açıqlığı arzulayırıq. Başladığın yol səni uğurların ən zirvə həddinə öz çevik ağlın və biliyinlə çatdırsın.





# Əlizadə Sənan Mübariz oğlu







**"Elm adamlarının qiymətini bilməyən, onlara layiq olduqları mükafatı verməyən ölkələr inkişaf edəcəklərinə ümid bəsləməsinlər".**

***(Volter)***

Elm nuru, cahillik zülməti ifadə edir. Bir cəmiyyətin aydınlığa çıxması, nura qərq olması elmli olmasından, əksinə zülmətə qərq olması isə cahilliyi ilə ölçülür. Cahil olmamaq üçün çox oxumaq, çöx öyrənmək lazımdır ki, o xəstəliyə düçar olamayasan. Şərəfətli elm heç bir millətin malı deyil, kim ona yiyələnsə onundur deyib böyük mütəfəkkir Cəlaləddin Əfqani. Bəli, elm heç bir millətin, heç bir dövlətin şəxsi malı deyil, əksinə onun sayəsində öz dövlət və cəmiyyətlərini inkişaf etdirib 21-ci əsrin ən inkişaf etmiş ölkələri səviyyəsinə çatdıra bilirlər. Bir ölkə kimi bizim də elmin inkişafına, ən son yeni texnoloji kəşflərdən yararlanmağa və faydalanmağa böyük ehtiyacımız var. Bu məsələdə isə ən böyük məsuliyyət təhsil sisteminin, ardınca müəllim və onun yetirmələrinin üzərinə düşür. Çünki keyfiyyətli təhsil sistemi savadlı və ixtisaslı kadrlar yetirə bilər. Elə jurnalımızın da əsas qayəsi buna xidmət etməklə məqsədi savadlı və bacarıqlı, müəyyən uğur nəaliyyətlər əldə etmiş şagirdləri tanımaq və tanıtmaqdır. Növbəti yazımızın qəhrəmanı Əlizadə Sənan Mübariz oğlu da elə bu qənaətdədir. 11 yaşlı bu şagird də çalışır ki, ömrünü məktəbdə ona tədris edilən elm və biliklərlə zənginləşdirsin, gələcək həyatının başlanğıcını elm yolundan salsın. 2008 ci ilin may ayının 22-də Bakı şəhərində doğulan Sənan ilk təhsil həyatına 2013-cü ildə 32 nömrəli Ağdam rayon tam orta məktəbdə başlayıb. Təhsil yolunun çətin olduğu qədər şərəfli olduğunu deyən gənc müsahib bildirir ki, indiyə qədər öyrəndiklərinə görə məktəbə, sevimli müəllimlərinə minnətdardı. Öyrədən müəllimdən daim öyrənməyi özünə borc bilən Sənan hazırda həmin məktəbin 6-cı sinifində təhsilini davam etdirir. Təbiət, ədəbiyyat mövzularına xüsusi rəğbəti olmaqla yanaşı ən çox sevdiyi fənn ədəbiyyat və coğrafiyadır. Həmin fənnlərin tədrisçiləri olan Firəngiz müəllim və Yeganə müəllim isə onun ən çox sevdiyi və öyrəndiyi müəllimlərdir. Sevgi və diqqətlə bilik xəzinəsinə həkk etdirdiyi hər hikmət isə ona gələcəkdə bir həyat dərsi, sitimul mənbəyidir. Təbiətlə daim maraqlanan müsahibimiz asudə vaxtlarında mütaliə edir və musiqi ilə məşğul olur. Milli musiqi alətimiz sayılan tarda rəngarəng ifaları ilə həm ruhunu dincəldir, həm də əlavə məşğuliyyətini təkmilləşdirir. Təhsil və musiqi həyatında hələlik ciddi uğura nail olmasa da ona gedən yolda inamla addımlamaqdadır. Ən böyük arzusu da məhz gələcəkdə tanınmış musiqiçi olmaqdır, yəni ölkədə ən mahir tar ifaçılarından biri olmaq, bəlkə də birincisi. Bununla həm özünə, həm də cəmiyyətə önəmli töhvə verəcəyini düşünən Sənana valideynləri də dəstəkdir. Atası Əliyev Mübariz Kamal oğlu hazırda sürücü işləyir. Özü vətənpərvər vətəndaş kimi Qarabağ döyüşlərində iştirak edib və şücaət göstərib. Vətəni uğrunda öz canının sağlığından keçib. Hazırda ikinci qrup Qarabağ əlilidir. Anası Əliyeva Səkinə Mirvəli qızı ali təhsilli ibtidai sinif müəllimidir. Hər iki valideyn övladının gələcəyi ilə bağlı xoş ümidlidirlər və çalışırlar ki, övladlarına layiqli valideyn olub onları vətəninə, elinə layiqli vətəndaş kimi yetişdirsinlər. Axı inamlı gələcək, sağlam ümid gözəl nəticə deməkdir. Qardaşı olmasa da özündən beş yaş böyük Əliyeva Aytac adında bacısı var. Bütün ailə üzvləri bir nəfər kimi onu sevir və arzularına doğru yol aldığı inamlı məqsədində dəstəkçidirlər. Müəllimləri və ailəsi inanır ki, Sənan məqsədinə doğru inamla addımlayarsa, hər zaman bilik və elmlə maariflənərsə gələcəyi bir o qədər parlaq olar. Niyyət elm ilə əməl arasında bir vasitə olduğu kimi, elm və bilik də Sənanın gələcək həyatında əsas vasitə olsun deyirik. Jurnalımızın kollektivi adından ona böyük sənət və həyat uğurları arzulayıb, sevimli tarı ilə bağlı gələcək planında uğurlar və xoş sədalı yaradıcılıq arzulayırıq.

# YASİNOV CAVİDAN





**Yaxşı kitabı oxuyanda ilk dəfə oxuyanda bizə elə gəlir ki, yeni dost qazanmışıq. Həmin kitabı təkrar oxumaq köhnə dostu yenidən görməkdir.**
***(F. Volter)***

Bilik savad biz insanları cahillikdən və cəhalətdən qurtaran xilas edən bir xəzinədir. Bilik qazanmaq və əldə etmək hər birimizin borcudur. Hər zaman bizi digərlərindən fərqləndirən əsas amil də məhz elə bilik və savaddır. Bilik insanın özü və onu əhatə edən aləm və bu aləmin amilləri haqqında məlumatlar toplusudur. Biliyin və elmin başlanğıcı təhsil ocaqlarında ibtidai sinifdən başlayır. Jurnalın bu səhifəsində sizlərə elmə, təhsilə həyatında böyük yer verən kamallı bir oğlandan bəhs edəcəyik.

Cavidan Yasınov Zeyd oğlu mart ayının 17-də 2006-cı ildə ölkəmizin isti güşələrindən biri olan Sabirabad rayonunda anadan olmuşdur. 2012-ci ildə Yaxa Dəllək kəndi Əlif Xanlarov adına tam orta məktəbə başlayan Cavidan indi elə həmin məktəbin 7b sinifində təhsilini davam etdirir. Dərs oxumağı, yazmağı və dərslərinə hər zaman yaxşı hazırlaşmağa çalışan bu qoçaq oğlanın sevdiyi bir çox dərslər var. Ən çox sevdiyi dərsləri isə riyaziyyat, ingilis dili və Azərbaycan dilidir. Hər zaman çalışqanlığı ilə seçilən Cavidan müəllimlərini çox sevdiyini və bir zamanlar onlar kimi şagirdlərə dərs deyib bu uca vəzifəni yerinə yetirmək istədiyini deyir. Ən çox sevdiyi müəllimləri isə Aynur, Vəfa,Rüfanə, Sahilə,Aygün və Təranə adlı müəllimlərdir. Qeyd etdiyimiz kimi, Cavidan da gələcəkdə müəllim olmaq arzusundadır. Cavidan bilir ki, bu peşə olduqca məsuliyyətli və çətindir. Buna görə də o durmadan çalışıb və oxuyub bu xəyalını gerçəkləşdirmək istəyir. Boş zamanlarını isə kitab oxuyaraq keçirir.

Ailə 5 nəfərdən ibarətdir. Cavidan ailə üzvlərini çox sevdiyini deyir. Atası Zeyd bəy və anası Xeyransa xanım bu ağıllı balaya daima dəstək olurlar. Onun gələcəyinə böyük ümid bəsləyirlər. Cavidanın Nailə adında gözəl bir bacısı və Cavid adında bir qardaşı var.

Biz də Cavidan balaya dərslərində və gələcək həyatında nailiyyətlər arzulayırıq. Uğru bol, yolu açıq olsun. Elm-təhsil yolunuza hər zaman yaşıl işıq yandırsın.

# ZƏHRA HƏSƏNLİ





**Fəzilət, elm və mərifətdən məhrum olanlar üçün ölüm deməkdir.**
**(M. T. Sidqi)**

Elm adamlarının qiymətini bilməyən, onlara layiq olduqları mükafatı verməyən, ölkələr inkişaf edəcəklərinə ümid bəsləməsinlər. Böyüklərimiz hər zaman deyib ki, elm bir nur cəhalət isə bir zülmətdir. Hal-hazırda elə bir dövrdə yaşayırıq ki, elmli və savadlı insanlar hər sahədə qabaqcıl mövqə tuturlar. Ölkəmizin gəncləri ə bunu əsas meyar götürüb durmadan çalışmalı və parlaq gələcəyə sahib olmaq üçün əllərindən gələni etməlidirlər. Şübhəsiz ki elm insanların xilasıdır. Dünyanın hansı guşəsində olsa belə elm arxasınca gedilməlidir.

Jurnalımızın bu nömrəsinin qəhrəmanlarından biri də adı kimi özü də gözəl olan Zəhra baladır. Zəhra avqustun 8-i 2010-cu ildə Sabirabad rayonu Yaxa Dəllək kəndində anadan olub. Bu ağıllı bala 2016-cı ildə Əlif Xanlarov adına Yaxa Dəllək kəndi tam orta məktəbinə daxil olub və elə bu məktəbin 3a sinifində təhsilini uğurla davam etdirir. Balaca olmağına baxmayaraq, Zəhra artıq bir sıra imtahanlardan uğur əldə edib. Çalışqan və bacarıqlı olan Zəhra Azərbaycan dili fənninə daha çox marağı olduğunu deyir. Əlbətdə ki, bu fənni ona sevdirən zəhmətkeş bir müəllimə var hansı ki, bu Aygün müəllimdir. Aygün müəllimini çox sevən Zəhra balanın ən böyük arzusu, elə savadlı bir müəllimə olmaqdır. Biz əminik ki, Aygün gələcəkdə bu arzusunu mütləq reallaşdıracaq. Asudə zamanlarını kitab oxumaqla keçirən Aygün hər gün daha çox bilik əldə etmək istəyir. Gələcəyin peşəkar kadrı üçün bu vacib xüsusiyyətdir.

Onun ailəsi 3 nəfərdən ibarətdir. Atası Azər bəy işləmir. Anası isə xəstəxanada işləyir. Aysun bu evin tək qızı və atasının, anasının birdənəsidir. Hər kəs kimi onlar da Aysunun uğurlarının bol olmağını arzu edir, gələcəkdə savadlı bir müəllim olacağına ümid edirlər.

Jurnalımız adından Aysun balaya bol nailiyyət, dərslərində uğur diləyirik. Arzu edirik ki, gözəl bala savadlı bir müəllim olmaq xəyalını böyüdüyü zaman gerçəkləşdirsin.



ÇAĞDAŞ

# TƏHSİL

Xüsusi buraxılış MART 2019-cu il (15)








2013-cü ildən nəşr olunan Təhsil Yenilikləri qəzeti və eyni adda xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir. Öz saylarında daha çox təhsil, təhsildəki yeniliklər haqqında məlumat verir.

Xüsusi buraxılış olan jurnalda istənilən şəxslər öz yazılar ilə çıxış edə bilər. Belə ki, qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri-ixtisasın sahibləri öz yazılarını jurnalda çap etdirə bilərlər. Eləcə də 500-dən yuxarı bal toplayan məzunlar, əlaçılar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti olan və şeir yazmaq və demək qabiliyyəti olan şagirdlər də jurnala müraciət edə bilərlər.

Onu da qeyd edək ki, jurnal şəhid övladlarına, fiziki əqli cəhətdən zəif olan şagirdlərə, o cümlədən hər iki valideynini itirən şagirdlərə pulsuzdur.

Əziz oxucular! Əgər sizlər də jurnalda məqalə, elan, təbrik və reklam vermək istəyirsinizsə aşağıdakı telefonlarla əlaqə saxlaya bilərsiniz:
Telefon nömrələri:
(070) 077 988 82 83 077 632 22 86 WhatsApp 012 408 91 92

Mail: tehsil_news@mail. ru
Facebook: Tehsil Yenilikleri İnstagram: tehsil_yenilikleri Youtube: Təhsil Yenilikləri








Təsisçi:
Vüsal Kəlbəcərli

Baş redaktor:
Ülvi Musayev

Redaksiya heyyəti:
Cavid Qurbanov
Qənbər Qurbanov

"Çağdaş Təhsil" qəzetinin Xüsusi buraxılış

Ünvan: Azərbaycan Respublikası Bakı şəhəri, Mətbuat prospekti 529-cu məhəllə "Azərbaycan nəşriyyatı" 2-ci mərtəbə

Jurnal Redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib, çap olunmuşdur.

Tiraj - 500

Tel: 077-632-22-92
050-770-21-97
055-334-99-86
012-408-91-92
077-632-22-86
050-877-71-86